www.amu.edu.az

# TƏBİB

Təsisçi: Azərbaycan Tibb Universiteti — Qəzet 1933-cü ildən çıxır — №-03 (1764) 15 fevral 2023-cü il



## Türkiyə, səninləyik!

**Prezident İlham Əliyev: Biz qardaşlığımızı təkcə dövlətlərarası və dövlət başçıları səviyyəsində deyil, insanlar səviyyəsində də bütün dünyaya nümayiş etdiririk**

səh. 2

## ATU-nun rektoru Gənclər Günü münasibətilə tələbələri təbrik edib

səh. 2

## Qış imtahan sessiyası başa çatıb

səh. 5

## Əməkdaşlarımızın ixtirasına beynəlxalq patent verilib

səh. 7




## Elm şöbəsində ciddi struktur dəyişikliyi aparılacaq

Rektor, professor Gəray Gəraybəyli: Əgər elm sahəsində dönüş yaratmasaq, bir neçə ildən sonra geri qala bilərik

səh. 3

## Magistrlərə diplomlar təqdim olunub

*Bu il ilk dəfə magistrlərin dissertasiya işlərinin yoxlanılmasında plagiat proqramı tətbiq edilib*

səh. 2

## Xəstəliyin qarşısını almaq, onu müalicə etməkdən daha rahatdır

*Fevralın 4-ü Ümumdünya Xərçənglə Mübarizə Günü idi*

səh. 6



## ATU-da "Heydər Əliyev və ailə dəyərləri" mövzusunda tədbir keçirilib

Heydər Əliyev irsinin gənclərimiz tərəfindən yaxşı öyrənilib mənimsənilməsi böyük əhəmiyyətə malikdir

səh. 4



# Türkiyə, səninləyik!

## Prezident İlham Əliyev: Biz qardaşlığımızı təkcə dövlətlərarası və dövlət başçıları səviyyəsində deyil, insanlar səviyyəsində də bütün dünyaya nümayiş etdiririk

**Məlum olduğu kimi, fevralın 6-da ocağı Türkiyənin Kahramanmaraş şəhərinin Pazarcık rayonu olan 7,7 maqnitudalı və 9 saat sonra episentri eyni şəhərin Elbistan rayonu olan 7,6 maqnitudalı iki zəlzələ baş verib. Güclü yeraltı təkanlardan sonra bölgədə 6,6 maqnitudayadək yüzlərlə afterşoklar qeydə alınıb. Təbii fəlakət Türkiyə və Suriyada böyük dağıntı və 10 minlərlə insan itkisinə səbəb olub.**

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ölənlərin xatirəsini anmaq üçün ölkədə 7 günlük matəm elan edib. Bundan başqa, ölkənin zəlzələ baş verən 10 şəhərində 3 aylıq fövqəladə vəziyyət elan olunub.

Bu hadisə Türkiyədə 1939-cu ildən bəri qeydə alınan ən güclü zəlzələ kimi tarixə düşüb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 8-də Türkiyə Respublikasının ölkəmizdəki səfirliyində olub, zəlzələ nəticəsində çox sayda insanın həlak olması ilə əlaqədar başsağlığı verib.

Dövlətimizin başçısı matəm kitabına ürək sözlərini yazıb, səfirlə söhbətində deyib:

- Bilirsiniz ki, Azərbaycan hər zaman olduğu kimi, ilk dəqiqələrdən, ilk saatlardan qardaş Türkiyənin yanında idi və öz dəstəyimizi, öz həmrəyliyimizi həmişə olduğu kimi nümayiş etdirmişik. Əgər bu acı faciənin fəsadlarının aradan qaldırılmasına bir balaca kömək edə bilmişiksə, bunu özümüz üçün şərəf bilirik. Hər zaman Türkiyə də bizim yanımızdadır, yaxşı günlərdə, çətin günlərdə.

Bu dəhşətli zəlzələ bizi çox sarsıtdı. Biz qardaşlarımızın dərdinə şərikik. Yaralılara tezliklə Allahdan şəfa diləyirik. Mən əziz qardaşım, cənab Prezidentə telefonla başsağlığı vermək üçün zəng edəndə dedim ki, bütün varlığımızla biz Sizinlə bir yerdəyik və bilirsiniz ki, durmadan heyətlər göndərilir. Eyni zamanda, həkimlər, xilasedicilər, könüllülər göndərilir və göndəriləcəkdir.

Bilirsiniz ki, Azərbaycan xalqı könüllü olaraq qardaşlara, öz doğma qardaşlarına dəstək olmaq üçün kimin əlində nə var onu gətirir. Yəni, kimi yorğan gətirir, kimi döşək gətirir, kimi gödəkcə gətirir. Kimin imkanı nəyə çatırsa, onu da əsirgəmir. Biz bütün dünyaya bir daha nümayiş etdiririk ki, təkcə dövlətlərarası səviyyədə deyil, dövlət başçıları səviyyəsində deyil, insanlar səviyyəsində də əsl qardaşlıq əlaqələri mövcuddur və bu da təbiidir.

Bizim ictimai təşkilatlarımız da öz dəstəyini göstərirlər. Heydər Əliyev Fondu artıq böyük təşəbbüsə start verdi. Fondun bütün imkanları, Fondun nəzdində çalışan bütün insanlar artıq bu yardım kampaniyasına qoşulmuşlar.

Özəl şirkətlər də artıq fəaliyyətə keçiblər və həm maddi yardım, eyni zamanda, texniki yardım göstərməyə başlamışlar. Mənim göstərişimlə bizim ən böyük şirkətimiz SOCAR öz dəstəyini verməyə başlayır. Bilirsiniz ki, SOCAR-ın Türkiyədə böyük fəaliyyəti, böyük imkanları var. Bu şirkət, eyni zamanda, Türkiyə şirkətidir və əlində olan bütün imkanlarla yardım etməyə çalışır və çalışacaq.

Mənim göstərişimlə bütün yardım məsələləri bir mərkəzdən idarə olunacaq, Prezident Administrasiyasının rəhbərinə göstəriş verildi. O cümlədən bizim xəstəxanalarda yaralı qardaş-bacılarımızın müalicəsi üçün bütün şərait var. Həm Bakıda, digər şəhərlərdə, o cümlədən Naxçıvan Muxtar Respublikasında artıq çarpayılar ayrılıb və əgər ehtiyac olarsa, biz xəstələri gətirməyə də hazırıq.

Əminəm ki, Türkiyə bu acı sınaqdan da şərəflə çıxacaq, bunu da aşacaq. Ancaq bu, inanılmaz dərəcədə böyük faciədir. Hər bir qurtarılan can elə bil ki, bizə bir dünyanı bağışlayır. Yenə də deyirəm, həm Türkiyədən, həm Azərbaycandan, həm digər ölkələrdən gələn xilasedicilər çox böyük iş görürlər. Əlbəttə ki, burada əsas yük və mənəvi yük Türkiyə hökumətinin üzərinə düşür. Tam əminəm ki, güclü və qüdrətli Türkiyə dövləti bu çətinliyi də aşacaq. Qurtarma, arama işlərindən sonra təbii ki, bərpa işlərinə də biz qoşulmağa hazırıq. Yəni, Türkiyə-Azərbaycan artıq bir yumruqdur, bir ürəkdir, bir candır. Biz belə görürük, Türkiyə və Azərbaycan vətəndaşları da belə görürlər. Bu ağır günlərdə Türkiyənin yanında olmaq bizim üçün böyük şərəfdir.

Bir daha deyirəm, keçmiş olsun, bütün həlak olanlara Allah rəhmət eləsin, yaxınlarına səbir versin!

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva rəsmi instaqram səhifəsində Türkiyədəki zəlzələdən zərər çəkənlərə humanitar yardımla bağlı paylaşım edib. Paylaşımda deyilir:

"Əziz həmvətənlər!

Hər zaman birlik və həmrəylik nümayiş etdirərək bir-birinə kömək etməyə hazır olmaq, əl-ələ verərək çətinliklərdən və sınaqlardan birlikdə üzüağ çıxmaq Azərbaycan xalqının ən gözəl xüsusiyyətlərindən biridir. Qardaş Türkiyədə baş vermiş dəhşətli zəlzələnin ilk saatlarından Türkiyə xalqına göstərdiyiniz dəstək xalqlarımız arasında qardaşlıq, dostluq münasibətlərinin, qarşılıqlı sevginin sarsılmazlığının, möhkəmliyinin, əbədiliyinin növbəti əyani sübutudur.



Zəlzələ bölgəsində axtarış-xilasetmə işlərinə cəlb olunmuş xilasedicilərimizə, xəsarət alanların sağlamlığına qovuşması üçün əlindən gələni əsirgəməyən tibb işçilərimizə, faciədən zərər çəkmiş Azərbaycan vətəndaşlarının müəyyən edilməsi və təxliyəsi ilə məşğul olan diplomatik xidmət əməkdaşlarına, hadisələri yorulmadan işıqlandıran KİV nümayəndələrinə təşəkkürümü bildirirəm. Ölkəmizdə başlanılmış yardım kampaniyasına qoşulan hər bir soydaşımıza, yerli şirkət və təşkilatlara, xüsusilə yardım toplama məntəqələrində gecə-gündüz var gücü ilə işləyən könüllülərə, polislərə, bir sözlə, qardaş Türkiyə xalqının yanında olmağa çalışan hər kəsə minnətdaram! İnsansevərliyinizə, mərhəmətinizə və şəfqətinizə görə çox sağ olun! Azərbaycanlı olduğuma görə çox qürurluyam!

Zəlzələ nəticəsində həlak olanların sayının artması bizi olduqca kədərləndirir. Həlak olanlara Allahdan rəhmət diləyir, onların doğmalarına və yaxınlarına bir daha dərin hüznlə başsağlığı verirəm. Yaralananların tezliklə şəfa tapmasını arzulayıram! Əminəm ki, Türkiyə xalqı öz iradəsi və mətinliyi sayəsində bu ağır sınaqdan sarsılmayacaq! Uca Tanrı dünyamızı qorusun! Türkiyə, səninləyik!".

Qeyd edək ki, zəlzələdən dərhal sonra Azərbaycanda qardaş ölkə üçün yardım toplanmasına başlanılıb. İndiyədək 10-dan çox təyyarə, 100-dən çox yük maşını qida, geyim, gigiyena, elektrik avadanlıqları, çadırlar və s. ibarət olan zəruri ilkin yardımları Türkiyəyə çatdırıb.

Azərbaycandan 740 nəfər axtarış-xilasetmə mütəxəssisi 50-dən çox insanı dağıntılar altından sağ qurtarıb, həkimlərimiz onlarla yaralını əməliyyat edib, yüzlərlə könüllümüz prosesə lazımi köməkliyini göstərir.

Son məlumata görə, hadisə nəticəsində Türkiyədə 35 minə yaxın, Suriyada isə 6 minə yaxın insan ölüb.

# ATU-nun rektoru Gənclər Günü münasibətilə tələbələri təbrik edib

Fevralın 2-si Azərbaycan Gəncləri Günü idi. Bu münasibətlə Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli universitetimizdə təhsil alan tələbələri təbrik edib.

Təbrikdə bildirilir ki, bu əlamətdar tarixi gün gənclərə həmişə böyük diqqət və qayğı ilə yanaşan, onların problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərə xüsusi önəm verən, bu siyasəti müasir müstəqil Azərbaycan dövlətinin fəaliyyətinin ən mühüm istiqamətlərindən biri kimi dəyərləndirən ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır.

"Ulu Öndərin 1997-ci il fevralın 2-də imzaladığı Fərmana əsasən, fevralın 2-si Azərbaycan Gəncləri Günü elan edilib. Ümummilli lider gənclər sahəsində dövlət siyasətinin uğurla həyata keçirilməsi məqsədilə bu sahənin zəruri qanunvericilik bazasının formalaşdırılmasını təmin edib. Gənclərin sosial, iqtisadi və s. problemlərinin həllinə yönələn, onların öz qabiliyyətlərinin inkişaf etdirmələrinə kömək edən fərman və sərəncamlar, Dövlət proqramları gənc nəslin mütəşəkkil qüvvə kimi formalaşmasına, onların mənəvi-ideoloji cəhətdən tam yetkinləşməsinə, sosial problemlərinin həllinə son dərəcə müsbət təsir göstərib" – təbrikdə deyilir.

Rektor qeyd edib ki, Prezident İlham Əliyev Ulu Öndərin gənclər siyasətinə sadiqliyini öz qərarları ilə təsdiq edir. Gənclərin mənəvi inkişafı, vətənpərvərlik tərbiyəsi, xarici ölkələrdə təhsili, sosial müdafiəyə ehtiyacı olanların problemlərinin həlli istiqamətində görülən işlər, gənclər təşkilatlarının formalaşması və inkişafı üçün yaradılan şərait və imkan bu sahəyə böyük diqqətin nəticəsidir.

ATU-nun rektoru vurğulayıb ki, Azərbaycan gəncləri üçün ən həlledici sınaqlardan biri də 2020-ci ildə Vətən müharibəsi oldu: "Rəşadətli Azərbaycan Ordusunun sıralarında Vətən uğrunda mətanətlə vuruşan qəhrəman gənclərimiz adlarını xalqımızın ən yeni tarixinə qızıl hərflərlə yazdılar. Məhz onların rəşadəti sayəsində Azərbaycan ərazi bütövlüyünü bərpa etdi, xalqımız otuz illik həsrətdən sonra tarixi torpaqlarımıza qovuşdu.

Hazırda ölkəmizdə gənclər siyasəti uğurla həyata keçirilir. Sosial həyatın bütün sferalarına nəzər salsaq, görərik ki, orada gənclər əksəriyyət təşkil edir. Təbii ki, bu, Prezident İlham Əliyevin gənc kadrların irəli çəkilməsi ilə bağlı qarşıya qoyduğu vəzifənin reallaşmasının nəticəsidir".

Bu əlamətdar gün münasibətilə tələbələri təbrik edən ATU-nun rektoru, onlara təhsillərində və şəxsi həyatlarında uğurlar arzulayıb.

**Azərbaycan Tibb Universitetinin rektoru və rəhbər əməkdaşların iştirakı ilə "Klinik psixologiya" və "Səhiyyə menecmenti" ixtisasları üzrə ilk magistr məzunlarına diplomların verilməsi mərasimi baş tutub.**



# Magistrlərə diplomlar təqdim olunub

## Rektor, professor Gəray Gəraybəyli: Bu il ilk dəfə magistrlərin dissertasiya işlərinin yoxlanılmasında plagiat proqramı tətbiq edilib

Görüşdə çıxış edən ATU-nun rektoru, professor Gəray Gəraybəyli bu günlərdə qardaş Türkiyədə baş verən təbii fəlakətə görə bütün Azərbaycan xalqının üzüldüyünü, əlindən gələn köməyi göstərməyə çalışdığını bildirib. Rektor, həmçinin ATU ilə qarşılıqlı əməkdaşlıq memorandumu imzalamış bir çox Türkiyə universitetlərinin rəhbərləri ilə danışıqlar apardığını, qardaş Türkiyənin hüznünə şərik olduğumuzu və ehtiyac duyulan istənilən yardımı göstərməyə hazır olduğumuzu onların diqqətinə çatdırdığını qeyd edib.

Daha sonra professor Gəray Gəraybəyli gələcəyin səhiyyə işçilərinə xitabən deyib: "Bu il ilk dəfə olaraq məhz sizin magistr dissertasiya işlərinizə plagiat proqramı tətbiq olundu. Düzdü, bir sıra hallarda plagiat halları aşkarlansa da, sonrakı yoxlamalarda bu problem öz həllini tapdı. Sizlərlə bərabər biz də təcrübə qazandıq, çatışmazlıqlarımızı aşkarladıq və onları düzəltməyin yollarını müəyyənləşdirdik.

2020-2021-ci tədris ilində "Klinik psixologiya" üzrə planlı yerə 10 qəbul olmuşdu ki, 10 nəfər də məzun oldu. "Səhiyyə menecmenti" üzrə isə müxtəlif səbəblərə görə 8 nəfərdən 6 nəfər məzun oldu. Qeyd edim ki, klinik psixoloqların hamısı, "Səhiyyə menecmenti" üzrə isə 4 nəfər fərqlənmə diplomuna layiq görülüb".

ATU-nun rektoru magistrlərə gələcək fəaliyyətlərində uğurlar arzu edib, onları universitetimizdə hansısa vəzifələrdə görəcəyinə inandığını və harada işləsələr, ATU-nun adını ucaldacaqlarına əminliyini vurğulayıb.

**Yanvarın 31-də Böyük Elmi Şuranın növbəti iclası keçirilib. İclası açıq elan edən ATU-nun rektoru, professor Gəray Gəraybəyli gündəlikdə duran məsələləri diqqətə çatdırdıqdan sonra universitetin Elmi işlər üzrə prorektoru, professor Rauf Bəylərovun "Azərbaycan Tibb Universitetində 2022-ci ildə yerinə yetirilən elmi-tədqiqat işlərinin vəziyyəti və qarşıda duran vəzifələr" mövzusunda hesabatı dinlənilib.**

# Elm şöbəsində ciddi struktur dəyişikliyi aparılacaq

## Rektor, professor Gəray Gəraybəyli: Əgər elm sahəsində dönüş yaratmasaq, bir neçə ildən sonra geri qala bilərik

O, 2022-ci ildə universitetimizin bir çox nailiyyətlər əldə etdiyini və hesabat ilində Azərbaycan səhiyyəsinin tarixində ilk dəfə olaraq ATU-nun tədris proqramlarının beynəlxalq akkreditasiyadan keçdiyini bir daha diqqətə çatdırıb: "Uzun müddətli akkreditasiya prosesini Dünya Tibb Təhsil Federasiyası (DTTF) tərəfindən 2017-ci ildən etibarən rəsmi şəkildə tanınan Akkreditasiya və Reytinq üzrə Müstəqil Agentlik aparıb. Nəhayət, 2022-ci il yanvarın 28-də beynəlxalq qurumun ali orqanı tərəfindən müsbət qərar verilib. Təqdim edilən 3 ixtisas üzrə (Müalicə işi, Əczaçılıq və Stomatologiya) ən böyük müddətə - 5 illiyə akkreditasiyadan keçirilmə universitet və ölkəmiz üçün əhəmiyyətli hadisədir.

2022-ci ildə universitetimiz 110-dan artıq ali məktəbi birləşdirən nüfuzlu Avrasiya Universitetlər Birliyinə (EURAS) üzv qəbul edilib. Bu birlik 50-dən çox ölkədə fəaliyyət göstərən müxtəlif universitetlər arasında əməkdaşlığı təşviq edir".

Sözünə davam edən məruzəçi bildirib ki, son zamanlar səhiyyədə aparılan islahatlar nəticəsində əhaliyə ilkin tibb xidmətinin təşkili üçün bu sahə üzrə mütəxəssislərə ehtiyac yaranıb: "Baza tibb təhsilinin beynəlxalq təcrübəyə uyğun təkmilləşdirilməsi, təhsil proqramının dünyanın qabaqcıl ali təhsil müəssisələrinin proqramlarına uyğunlaşdırılması məqsədi ilə 2022-2023-cü tədris ilindən etibarən "Tibb və sağlamlıq elmləri təhsili" kafedrasının yaradılması məqsədəuyğun hesab edilib. Kafedra 2022-2023 tədris ilinin payız semestrindən fəaliyyətə başlayıb".

Çıxışında elmi nailiyyətlərə xüsusi yer ayıran prorektor nəzərə çatdırıb ki, hesabat ilində ATU-nun rektoru, professor Gəray Gəraybəyli və Elmi işlər üzrə prorektor Rusiya Elmi-Tibbi Terapevtlər Cəmiyyəti ilə aktiv əməkdaşlıq və iki ölkə arasında elmi əlaqələrin möhkəmlənməsinə verilən töhfəyə görə "İbn Sina" ordeni ilə təltif ediliblər. Bundan başqa, ATU-nun Onkologiya kafedrasının müdiri, akademik Əhliman Əmiraslanova, İnsan anatomiyası və tibbi terminologiya kafedrasının məsləhətçi-professoru Vaqif Şadlinskiyə və Normal fiziologiya kafedrasının müdiri, professor Arif Məmmədova Rusiya Elmlər Akademiyasının xarici üzvü diplomları təqdim olunub. Eləcə də ölkəmizin ictimai-siyasi həyatında fəallığına görə professor Vaqif Şadlinskiyə YAP-ın 30 illiyində Prezidentin fərdi təqaüdü verilib. Həmçinin II Daxili xəstəliklər kafedrasının müdiri, professor Rafiq Məmmədhəsənov və III Cərrahi xəstəliklər kafedrasının məsləhətçi-professoru Məmməd Nəsirov Prezidentin fəxri diplomu ilə təltif ediliblər".

ATU-nun beynəlxalq əlaqələrinin də günün tələbləri səviyyəsində qurulduğunu diqqətə çatdıran R.Bəylərov bildirib ki, dövlət başçısının sərəncamı ilə "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliyinin artırılması" üzrə Dövlət Proqramı təsdiq edilib və hazırda dünyanın 100-ə yaxın elm və təhsil qurumları ilə əməkdaşlıq edirik.

Professor R.Bəylərov çıxışında kadr potensialı barədə də məlumat verib: "2023-cü il yanvar ayının əvvəlinə olan məlumata əsasən, ATU-da çalışan 1179 nəfərin 1049-u professor-müəllim heyətidir. Onlardan 3-ü Rusiya Elmlər Akademiyasının üzvü, 2-si Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi, 4-ü müxbir üzvü, 23-ü əməkdar elm xadimi, 37-si əməkdar həkim, 36-sı əməkdar müəllim, 1-i əməkdar bədən tərbiyəsi və idman xadimi, 1-i fəxri bədən tərbiyəsi və idman işçisi, 168-i elmlər doktoru, 749-u fəlsəfə doktoru, 128-i professor, 296-sı isə dosentdir".



2022-ci ildə ATU-da "Əhalinin sağlamlığının qorunması" haqqında Azərbaycan Respublikası Qanununa əsasən aparılan elmi-tədqiqat işləri barədə məlumat verən R.Bəylərov təbabət və əczaçılıq sahəsində 3 istiqamət, 9 problem üzrə 57 elmi-tədqiqat işinin yerinə yetirildiyini diqqətə çatdırıb: "2022-ci ildə elmi-tədqiqat işlərinin nəticələri 20 monoqrafiya və kitabda (2-si xaricdə), 17 dərslikdə, 46 dərs vəsaitində, 3 kitabça və sorğu ədəbiyyatında, 5 elmi əsərlər məcmuəsində, 714 elmi iş xaricdə, 1097 elmi iş respublikamızda, 25 metodik tövsiyədə, 1 Azərbaycan patentində, 8 Avrasiya patentində öz əksini tapıb. EduRank.org reytinq cədvəlinə əsaslanaraq, ATU-nun əməkdaşları tərəfindən nüfuzlu jurnallarda çap olunmuş elmi işlərin sayı 520 təşkil edib və bu göstərici 2021-ci ilin göstəricisindən bir qədər aşağıdır. Buna baxmayaraq, istinad indeksi 2022-ci ildə 3,354 təşkil edərək artıb".

Məruzəçi ATU-da elmi kadrların hazırlanması işindən də bəhs edib: "Doktoranturaya ümumi qəbulun 32 nəfərindən 24-ü fəlsəfə doktoru proqramı üzrə, 8-i isə tibb üzrə elmlər doktoru proqramı üzrə daxil olub. Dissertanturaya isə ümumi qəbul olan 17 nəfərin 4-ü fəlsəfə doktoru proqramı üzrə, 13-ü isə tibb elmləri doktoru üzrə daxil olub. Hesabat ilində universitetin doktorantura təhsilinin səmərəliliyi 100% təşkil edib.

2022-ci il üçün universitetdə 110 doktorantdan 86-sı tibb üzrə fəlsəfə doktoru proqramı üzrə, 24-ü isə tibb üzrə elmlər doktoru proqramı üzrədir. ATU-da 68 dissertantdan 34-ü tibb üzrə fəlsəfə, 34-ü isə tibb elmləri doktoru proqramı üzrə təhsil alır. 2022-ci ildə 19 nəfər doktoranturanı və 25 nəfər dissertanturanı bitirib".

Əsaslı Kitabxananın fəaliyyətinə də toxunan prorektor bildirib ki, il ərzində kitabxanada bütün əlamətdar hadisələr, tarixi günlər qeyd olunur, kitabxananın profilinə uyğun mövzu sərgiləri təşkil edilir, yeni dərslik nəşrlərinin təbliği aparılır".

2022-ci ildə kitabxananın fondlarında 637 428 kitab olub ki, bunlardan 314 205-i elmi, 308 490-ı dərslik və 14 733-ü mübadilə fondlarında cəmlənib. Bundan başqa, kitabxanaya rəhbərlik tərəfindən alınan, həmçinin rektorluq, kafedralar və professor-müəllim heyəti tərəfindən, eləcə də ayrı-ayrı təşkilat və müəssisələrdən hədiyyə və mübadilə yolu ilə əldə olunan 2504 nüsxə kitab daxil edilib.

Tələbələrin çoxsaylı müraciətini nəzərə alan rəhbərliyin göstərişi ilə 2022-ci ilin may ayından etibarən əsaslı kitabxana 7 gün, 24 saat rejimində fəaliyyət göstərir.

Məruzə ətrafında çıxış edən professorlar Rizvan Məmmədov, Qalib Qarayev, Vəsadət Əzizov və Çingiz Rəhimov hesabatı qənaətbəxş qiymətləndiriblər. Onlar çıxışlarında universitetin elmi istiqamətdəki uğurlarından, dissertasiya şuralarının fəaliyyətindən, doktorantura və dissertasiya işlərinin mövcud vəziyyətindən bəhs edib, bu sahədə zəruri məsələləri dilə gətirərək təklif və rəylərini səsləndiriblər. Universitetdə aparılan mühüm elmi-tədqiqat işlərinin nəticələrindən də söhbət açan natiqlər Elmi-Tədqiqat Mərkəzində və Problem laboratoriyalarında aparılan bir sıra elmi-tədqiqat işləri, yerinə yetirilən və qazanılan beynəlxalq qrant layihələri, eləcə də proqramlardan söz açıblar.




Müzakirələri yekunlaşdıran rektor Gəray Gəraybəyli əsas diqqəti universitetdə yerinə yetirilən elmi-tədqiqat işlərinə və qarşıda duran vəzifələrə yönəldib: "Mən bir neçə məqama toxunmaq istərdim. Əvvəllər demişəm və yenə də vurğulamaq istəyirəm ki, biz gündən-günə sürətlə dəyişən dünyada yaşayırıq. Bilməliyik ki, bu dəyişən dünyada işimiz, şəraitimiz yeniləndikcə, tələblər də dəyişir. Məruzədə qeyd olunduğuna görə hansısa rəqəmlər artıb, ya da azalıb. Ancaq ümumiyyətlə, gördüyümüz kimi, son illər istər ölkə rəhbərliyi, istərsə də icra strukturları tərəfindən elm sahəsinə olan yanaşma da fərqlənir. Son illərin tələblərinə baxsaq, xüsusilə səhiyyədə elmi və fəxri adların verilməsində kəskin azalma var. Çünki bəzən görürük ki, adı dissertasiya olsa da, mahiyyətcə adi məqalə dərəcəsində deyil. Bu məsələ səhiyyə naziri hörmətli Teymur müəllimlə və Ali Attestasiya Komissiyasının sədri hörmətli Famil müəllimlə söhbətimdə diqqət mərkəzində olub. Belə getsə, ola bilsin ki, növbəti illərdə açıqlanan doktorantura və dissertantura yerlərində elmlər doktoru adları olmasın. Əgər biz elm sahəsində dönüş yaratmasaq, bir neçə ildən sonra geri qala bilərik. Çünki hazırda elmi-tədqiqat institutları da Səhiyyə Nazirliyinin tərkibinə keçəndən sonra tibb sahəsinə və tibb elminin inkişafına dair xüsusi bir konsepsiya hazırlanıb. Axı kadr hazırlığı ilə ölkədə məşğul olan bizik və bu sahəyə də xüsusi yer bizdə ayrılır. Elə klinik ixtisaslar var ki, iddiaçı özünə nə opponent tapa bilir, nə də rəyçi. Bundan başqa, tamamlanmamış dissertasiyalar məsələsi də var. Bəzən kafedraların bir çoxunda elmi işlərin təsdiqi və sonradan elmi işlərdən imtina halları olur. Mən hesab edirəm ki, bu məsələləri də araşdırmaq lazımdır.

Təəssüf ki, bir çox kafedralar var ki, orada işçi vəzifəsindən asılı olmayaraq ancaq dərslə məşğuldur. Aydındır ki, nəzəri kafedraların əsas istiqaməti təhsil və elmdir. Lakin klinik kafedralarda elə əməkdaşlar var ki, nə xəstəyə baxır, nə əməliyyat edir, nə də elmlə məşğul olur. Əgər doğrudan da belədirsə, onu burada saxlamağın mənası nədir?"

Digər məsələlərə münasibət bildirən professor G.Gəraybəyli universitetin beynəlxalq əlaqələrindən də söhbət açıb: "Qeyd edim ki, bizimlə əməkdaşlıq etmək istəyən hər bir xarici universitetin rəhbərləri müştərək işlərin aparılmasını təklif edir. Dünya universitetləri ilə qarşılıqlı əlaqələrimiz və bu istiqamətdə görülən işlər artıq öz nəticəsini göstərir. Yaponiya və Koreya universitetləri ikinci ildir ki, pulsuz doktorantura yerləri təklif edir, lakin biz ora namizəd tapa bilmirik".

Elm sahəsində bir sıra problemlərin olduğunu qeyd edən rektor, üç ay müddətində elm şöbəsində ciddi struktur dəyişikliyi aparılması və müasir tələblərə cavab verən strukturun qurulmasına dair tapşırıq verib.

Universitetin nəşriyyatının lazımi avadanlıqla təchiz edildiyini vurğulayan professor G.Gəraybəyli diqqətə çatdırıb ki, bundan sonra nəşriyyat tam gücü ilə işləyəcək. Artıq əməkdaşların dərslikləri və monoqrafiyaları 500 və yaxud 1000 tirajla deyil, elmi şöbə ilə kitabxananın birgə müəyyənləşdirdiyi tələbata uyğun çap olunacaq.

Daha sonra müxtəlif məsələlərin müzakirəsinə yer ayrılan şura üzvləri "ATU-da kargüzarlıq işinin təşkilinə dair təlimat"a və 2023/2024-cü tədris ilindən etibarən "Ortodontiya" kafedrasının təsis edilməsinə də münasibət bildirib. Bundan başqa, Onkologiya kafedrasının əyani doktorantı Əlibəyli Nərgiz Qalib qızının təhsilinin qiyabi davam etdirilməsi barədə müraciətini təsdiqləyib.

Sonda Böyük Elmi Şura elmlər doktoru işlərinin mövzusu və elmi məsləhətçini, eləcə də dərslik, dərs vəsaitləri, metodik vəsaitlərin nəşrini təsdiqləyərək, müsabiqə məsələlərini həll etməklə öz işini başa çatdırıb.

**M.ƏLƏKBƏRLİ**

## Ümummilli Lider üçün ən vacib sahələrdən biri insanların sağlamlığı olub



**Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi ölkəmizin hər yerində və onun hüdudlarından kənarda hər bir azərbaycanlının yüksək ehtiramı və dərin minnətdarlıq hissi ilə geniş qeyd olunur. "Heydər Əliyev İli" çərçivəsində Səhiyyə Nazirliyi tərəfindən də silsilə tədbirlərin keçirilməsi planlaşdırılıb.**

Belə tədbirlərdən biri fevralın 4-də nazirliyin Elmi-Tədqiqat Kardiologiya İnstitutu (ETKİ) tərəfindən "Kardioonkologiya: problemə müasir baxışlar" mövzusunda təşkil olunmuş beynəlxalq elmi-praktik konfransdır.

Tədbirdə səhiyyə nazirinin müavini İlqar Qasımov, Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Tibbi Planlama departamentinin rəhbəri Hikmət İbrahimli, Azərbaycan Tibb Universitetinin prorektoru Rauf Bəylərov, həmçinin Türkiyə və Azərbaycanın tanınmış elm xadimləri, deputatlar və kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak ediblər.

İlk olaraq Dövlət Himni səsləndirilib, ETKİ tərəfindən Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar hazırlanmış sənədli film nümayiş olunub.

Konfransda çıxış edən səhiyyə nazirinin müavini İlqar Qasımov Azərbaycanın dövlətçilik tarixində Ulu Öndər Heydər Əliyevin müstəsna rolunu qeyd edib. Onun sözlərinə görə, Ümummilli Lider Heydər Əliyev üçün ən vacib sahələrdən biri də insanların sağlamlığı, səhiyyənin və tibb elminin inkişafı, savadlı, bilikli, əsl peşəkar həkim kadrlarının hazırlanması olub: "Ümummilli Liderin səhiyyənin inkişafında diqqət etdiyi əsas məqamlardan biri də mövcud səhiyyə ocaqlarının abadlaşdırılması, yeni tibb müəssisələrinin tikilməsi idi. Bu gün digər sahələrdə olduğu kimi, Ulu Öndərin səhiyyə sahəsində də sosialyönümlü siyasət strategiyası Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir".

Tədbir haqqında məlumat verən ETKİ-nin direktoru Gülnaz Dadaşova diqqətə çatdırıb ki, konfransda bir neçə əlaqəli ixtisasların - kardiologiya, onkologiya və ürək-damar cərrahiyyəsinin kəsişməsində çalışan tanınmış ekspertlər iştirak edirlər: "Dünyada, o cümlədən Azərbaycanda kardioloji və onkoloji xəstəliklərlə bağlı statistik göstəricilər heç də ürəkaçan deyil. Dünyada həmin xəstəliklərlə bağlı artan tendensiyanı nəzərə alaraq bu gün ölkəmizdə ilk dəfə olaraq kardioonkologiya sahəsində tədbir keçirilir. Məqsədimiz həmin xəstəliklərə bir daha diqqətin yönəldilməsidir".

Beynəlxalq elmi-praktik konfrans Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Elmi Tibbi Şurası tərəfindən akkreditasiya olunub və 24 davamlı tibbi təhsil kredit balı ilə qiymətləndirilib. Tədbirin sonunda iştirakçılara sertifikatlar təqdim edilib.

## ATU-da "Heydər Əliyev və ailə dəyərləri" mövzusunda tədbir keçirilib

### Heydər Əliyev irsinin gənclərimiz tərəfindən yaxşı öyrənilib mənimsənilməsi böyük əhəmiyyətə malikdir

**Fevralın 1-də Azərbaycan Tibb Universitetində Nəsimi Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə universitetin tələbələri üçün "Heydər Əliyev və ailə dəyərləri" mövzusunda tədbir keçirilib. Tədbiri giriş sözü ilə ATU-nun Tərbiyə işləri üzrə prorektoru, dosent Zülfüqar Musabəyov açıb.**



Prorektor tədbirin mahiyyəti ilə bağlı iştirakçılara ətraflı məlumat verib: "Ulu öndərin mənalı və şərəfli ömür yolunun parlaq səhifələri xalqımızın yaxın tarixi keçmişi ilə ayrılmaz vəhdət təşkil edir. Azərbaycanın son 40 illik tarixinin elə bir mərhələsi yoxdur ki, orada bu fenomen şəxsiyyətin nəhəng işləri hiss olunmasın. Ümummilli lider Heydər Əliyev bütün zəngin həyatı boyu daim xalqını, Vətənini düşünüb, Azərbaycanı ən çətin məqamlardan, üzləşdiyi faciələrdən və çətinliklərdən xilas etmək üçün misilsiz fədakarlıqlar göstərib. O, təbiətin bəxş etdiyi bir çox fitri keyfiyyətləri sayəsində tarixi hadisələrin inkişafının məcrasını öncədən müəyyən edə bilib.

Bu il Azərbaycan xalqının Ümummilli lideri, dahi şəxsiyyət, dünya şöhrətli siyasi xadim Heydər Əliyevin anadan olmasının 100 illiyi tamam olur. Böyük və mənalı ömrünü xalqına, Azərbaycanın möhkəmlənməsinə, yüksəlişinə həsr etmiş Ulu Öndər özünün müdrikliyi ilə zəngin dövlətçilik məktəbi, yüksək idarəçilik ənənəsi yaradaraq, Ümummilli lider zirvəsinə yüksəlib. Onun yaratdığı dövlət idarəçiliyi məktəbi müstəqilliyimizin qorunmasına, vətənə, xalqa, dövlətçiliyə sədaqətlə xidmət edib. Heydər Əliyev məktəbinin layiqli davamçısı cənab Prezident İlham Əliyev ulu öndərin əsasını qoyduğu siyasəti bu gün uğurla davam etdirir".

Ulu Öndərin çoxşaxəli siyasi fəaliyyətindən söhbət açan prorektor, çıxışının sonunda Heydər Əliyev siyasətinin Azərbaycanda yaşadığını, bundan sonra da yaşayacağını və həmişə qalib gələcəyini vurğulayıb.

Nəsimi Rayon İcra Hakimiyyəti başçısının 1-ci müavini Gülarə Verdiyeva 2023-cü ilin xalqımızın yaddaşında ən dəyərli və yaddaqalan illərdən biri olacağını qeyd edib: "Heydər Əliyev İli" çərçivəsində hər birimiz tarixi yaddaşımızı yeniləməli, tariximizin yaddaşında olan bu dəyərli anları gələcək nəsillərə ötürməliyik. Siz gənclərin də borcu bu tarixi dərindən öyrənmək, sizdən sonra gələn nəsillərə ərməğan etməkdir.

Biz dünya dövlətləri arasında kiçik dövlət olsaq da, ölkəmizin inkişafı, mili-mədəni dəyərləri dünyaya yaxşı məlumdur. Eyni zamanda zəfər çalmış, qalib gəlmiş bir xalq kimi hər birimiz "mən azərbaycanlıyam" kəlməsini dünyada qürurla səsləndiririk. Bu məhz ulu öndərin apardığı siyasətin bariz nəticəsidir ki, onun hakimiyyəti illərində qəbul edilmiş konvensiyalar, layihələr bu gün özünün bəhrəsini verib".

Natiq keçirilən tədbirin mahiyyətindən də söhbət açıb: "Bugün bizim danışdığımız sahə ailə dəyərləri olacaq. Ailə, bilirsiniz ki, cəmiyyətin bir üzvüdür. Əgər ailələrimiz sağlam olarsa, onların rifahı yaxşı olarsa, cəmiyyətimiz də sağlam olar. Sağlam cəmiyyət qurmaq üçün biz ilk olaraq ailələrdən başlamalıyıq. Ulu Öndər ailələrin rifah halını yaxşılaşdırmaq üçün bir çox beynəlxalq konvensiyalara imza atıb, çoxuşaqlı analara, Əmək Qəhrəmanı olan xanımlarımıza, fiziki qüsurlu uşaqlara həmişə diqqət və qayğı göstərib".

G.Verdiyeva Ulu Öndərin hakimiyyəti dövründə işsizliyin aradan qaldırılması, qadın hüququnun bərpası, iqtisadi, sosial sahədə aparılan islahatlardan geniş bəhs edib, ailə dəyərlərinin qorunub saxlanmasında onun müstəsna rolunu xüsusi vurğulayıb.

Ədliyyə Nazirliyinin İnsan hüquqları və kommunikasiya idarəsinin rəisi Aynur Sabitova çıxışında bildirib ki, Azərbaycanda insan hüquqlarının inkişafı siyasətinin əsasını Ümummilli lider Heydər Əliyev qoyub. Ulu Öndərin həmişə insan hüquqlarının müdafiəsinə xüsusi önəm verdiyini vurğulayan idarə rəisi, Azərbaycanda insan hüquqları sahəsində ilk Dövlət Proqramının məhz xalqımızın Ümummilli lideri Heydər Əliyev tərəfindən təsdiq edildiyini bildirib. O, həmçinin tədbir iştirakçılarına ulu öndərin hakimiyyəti dövründə aparılan islahatlardan, ailə dəyərlərinin qorunması üçün Konstitusiyaya daxil edilən maddələrdən və "Ailə Məcəlləsi"nin qəbul edilməsindən söhbət açıb.

Tədbirdə çıxış edənlərdən Nəsimi rayon Ağbirçəklər Şurasının sədri Zərifə Quliyeva və Ədliyyə naziri yanında İctimai Komitənin koordinatoru Səadət Bənənyarlı da Ulu Öndərin həyat və fəaliyyətinə işıq salaraq, onun ikinci dəfə hakimiyyətə gəldiyi dövrdə ölkədə hərc-mərclik hökm sürdüyünü, müstəqilliyimizin təhlükə altında olduğunu və Heydər Əliyevin böyük siyasətçi kimi bu təhlükələrin qarşısını məharətlə aldığını qeyd ediblər. Bildirilib ki, Heydər Əliyev irsinin gənclərimiz tərəfindən yaxşı öyrənilib mənimsənilməsi böyük əhəmiyyətə malikdir.

**Qabil ABDULLAYEV**

## "Heydər Əliyev – 100" adlı kitab sərgisi açılıb

**ATU-nun Əsaslı kitabxanasında "Heydər Əliyev İli" ilə əlaqədar tədbirlər planı çərçivəsində "Heydər Əliyev – 100" adlı kitab sərgisi açılıb.**

Sərginin açılışında çıxış edən kitabxananın direktoru, tarix üzrə fəlsəfə doktoru Ziyafət Eminova 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə əlaqədar ölkə başçısı cənab İlham Əliyevin 29 sentyabr 2022-ci ildə xüsusi Sərəncam imzaladığını xatırladıb. Bildirib ki, bu qərar Ulu Öndərin şəxsiyyətinə, onun ictimai-siyasi fəaliyyətinə verilən çox yüksək qiymətdir. O, bu qərarın xalqımızın bütün təbəqələri tərəfindən böyük rəğbətlə qarşılandığını söyləyib. Hələ sovet dönəmində Heydər Əliyevin uzaqgörən siyasəti, gərgin əməyi, tarixi fəaliyyəti sayəsində Azərbaycanın qabaqcıl respublikalardan birinə çevrildiyini vurğulayıb: "O dövrdə həyata keçirilən genişmiqyaslı tədbirlər, iri sənaye müəssisələrinin açılması, tələbələrimizin xarici ölkələrdə təhsil alıb geri dönməsi, elm və texnikanın, mədəniyyətin bütün sahələrində böyük irəliləyişlər ulu öndərin adı ilə bağlıdır. Müstəqilliyimizin bərpasından sonrakı dövrdə də Azərbaycan dövlətinin parçalanmadan xilas edilməsi, xarici təzyiqlərə tab gətirərək möhkəmlənməsi Heydər Əliyevin dərin zəkası, qətiyyəti sayəsində mümkün olmuşdur".



ATU-nun İctimai fənlər kafedrasının müdiri, professor Qoşqar Əliyev də tədbirdə çıxış edərək, ilk növbədə sərginin təşkilinə görə kitabxana əməkdaşlarına təşəkkürünü bildirib. Hər bir azərbaycanlının həmişə böyük hörmət və məhəbbətlə xatırladığı Heydər Əliyevin şərəfli ömür yolundan söhbət açıb. O, milli təhlükəsizlik orqanlarında gənc zabit kimi fəaliyyətə başlayaraq, sonralar ölkənin rəhbəri vəzifəsinə yüksələn ulu öndərin xalqımız üçün əvəzsiz xidmətlərinin dərindən öyrənilməsinin vacibliyini diqqətə çatdırıb. Q.Əliyev gənc nəslin Heydər Əliyev irsi ilə daha yaxından tanış olması baxımından bu cür kitab sərgilərinin əhəmiyyətini vurğulayıb. Qeyd edib ki, başqa bir ideologiyanın təsiri altında yaşadığımız sovetlər dövründə də Heydər Əliyev öz xalqının tarixinə, milli maraqlarına həmişə xüsusi diqqət göstərib.

"Hələ SSRİ-nin tərkibində olduğumuz müddətdə Azərbaycan Respublikasının Konstitusiyasına çox önəmli müddəaların salınması, xüsusilə də Azərbaycan dilinin dövlət dili kimi təsbit edilməsi bir möcüzə idi" – deyən professor, Heydər Əliyevin idarəçilik fəaliyyətinin təkcə bir ölkəyə rəhbərliklə məhdudlaşmadığını vurğulayıb. O, bu fikrini ümummilli liderimizin ən mötəbər beynəlxalq təşkilatlara təsir etmək imkanı ilə, dünyada söz sahibi olması ilə əsaslandırıb.

Tədbirdə bünövrəsi Heydər Əliyev tərəfindən qoyulan daxili və xarici siyasətin bu gün də uğurla davam etdirildiyi vurğulanıb. Qeyd olunub ki, Ulu Öndərin arzuları artıq reallaşıb. Onun özü qədər inandığı möhtərəm prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Müzəffər ordumuz 30 ilə yaxın düşmən işğalında qalan torpaqlarımızı azad edib. İndi ölkəmizin hər yerində geniş quruculuq işləri vüsət alıb. Bütün bunlar Heydər Əliyev ideyalarının həyata keçməsinin bariz nümunəsidir.

Açılışdan sonra tədbir iştirakçıları sərgi ilə yaxından tanış olublar. Sərgidə müasir Azərbaycanın qurucusu və memarı, gələcək nəsillərə örnək olan Heydər Əliyevin zəngin və şərəfli həyat yolunu, çoxşaxəli ictimai-siyasi fəaliyyətini, dövlətçiliyimizin tarixində müstəsna xidmətlərini əks etdirən kitablar nümayiş etdirilir. Onların arasında ATU əməkdaşlarının müəllifliyi ilə işıq üzü görən kitablar da var.

# Qış imtahan sessiyası başa çatıb

## ATU-nun İmtahan Mərkəzi əlavə imtahanlar təşkil edib

**Azərbaycan Tibb Universitetində ötən il dekabrın 29-da başlayan payız semestrinin qış imtahan sessiyası bu il fevralın 1-də başa çatıb. Amma üzrlü səbəbdən imtahanda iştirak etməyən və ya sessiya ərzində 2 fəndən müvəffəqiyyət qazana bilməyənlər ATU-nun İmtahan Mərkəzinin fevralın 3-ü, 6-sı və 7-də təşkil etdiyi imtahanlarda iştirak ediblər.**

Bu barədə məlumat verən universitetin İmtahan Mərkəzinin müdiri, filologiya üzrə fəlsəfə doktoru Ülkər Cəfərova rəhbərlik etdiyi qurum tərəfindən imtahanların yüksək səviyyədə təşkil olunduğunu bildirib. Tələbələrin ən çox "Histologiya" fənnindən müvəffəqiyyət qazanmadığını qeyd edib: "Bu semestr Müalicə-profilaktika fakültələrində oxuyan və "Histologiya"dan kəsiri olan 48 əcnəbi tələbə yenidən imtahana qatıldı. Stomatologiya fakültəsindən isə 103 tələbənin adıçəkilən fəndən kəsirləri var idi. Onlardan Azərbaycan bölməsindən 35 nəfər təkrar imtahan verdi. Tələbələr anlamağa başlayıb ki, artıq güzəşt yoxdur, oxumaq yeganə yoldur".

Ü.Cəfərova tələbələrin digər fənlərdən də kəsirləri olduğunu qeyd edib. Fənlər sırasında "Anatomiya", "Patoloji fiziologiya" və s. adlarını çəkib. O, eyni zamanda imtahan nəzarətçilərinin aşkar etdiyi qayda pozuntularından da söhbət açıb: "Nəzarətçilərimiz tərəfindən bir tələbənin digər tələbənin əvəzinə imtahan verməsi faktı üzə çıxıb. Bu barədə rektorluğa təqdimat yazılıb. Yəqin həmin tələbə ilə bağlı uyğun qərar qəbul ediləcək".

# Magistratura təhsil pilləsində qış sessiya imtahanları yekunlaşıb

**Azərbaycan Tibb Universitetində magistratura təhsil pilləsində 2022-2023-cü tədris ilində qış sessiya imtahanları yekunlaşıb. İmtahanlar 5 əsas - Əczaçılıq, Klinik (tibbi) psixologiya, Menecment (səhiyyə sahəsi üzrə), Mikrobiologiya və biokimya, o cümlədən 5 alt - Əczaçılıq kimyası, Farmakoqnoziya, Toksikoloji kimya, Əczaçılıq texnologiyası, Əczaçılığın təşkili ixtisasları üzrə aparılıb.**



I və II kurslarda ümumilikdə 103 fənn üzrə imtahan keçirilib ki, bunlardan 6-sı Əczaçılıq kimyası ixtisasına aiddir. Həmin fənlər Kimyəvi birləşmələrdə "quruluş-fəallıq", Dərman maddələrinin standartlaşdırılması, Əczaçılığın tarixi və metodologiyası (test), Kimyəvi dərman maddələri, Əczaçılıq analizində fiziki-kimyəvi və kimyəvi üsullar, Dərman maddələrinin metabolizmidir.

Farmakoqnoziya ixtisasından da 6 fənn üzrə imtahanlar olub: Bitki xammalının fitokimyası, Bitki ehtiyatşünaslığı, Əczaçılığın tarixi və metodologiyası (test), Fitoterapiya, Heyvan və mineral mənşəli dərman xammalları və Bitki xammalının diaqnostikası.

Magistrlər qış sessiyasında Toksikoloji kimya ixtisası üzrə Bitki və heyvan mənşəli maddələrin kimyəvi-toksikoloji analizi, Ksenobiotiklərin metabolizm reaksiyaları, Əczaçılığın tarixi və metodologiyası (test), Sintetik üzvi zəhərli maddələrin kimyəvi-toksikoloji analizi, Analitik kimya, Qeyri-üzvi zəhərli maddələrin kimyəvi-toksikoloji analizi fənlərindən imtahan veriblər.

Əczaçılıq texnologiyası ixtisası üzrə imtahanlar isə Biotexnologiya, Fitopreparatların texnologiyası, Əczaçılığın tarixi və metodologiyası (test), Homeopatik preparatların texnologiyası, Əczaçılıq bioetikası, Müalicəvi kosmetoloji dərman vasitələri fənlərindən keçirilib.

Cari qış sessiyasında Əczaçılığın təşkili ixtisasından Əczaçılığın əmtəəşünaslığı, Əczaçılığın iqtisadiyyatı, Əczaçılığın tarixi və metodologiyası (test), Əczaçılıq marketinqi, Əczaçılıq menecmenti, Bitki mənşəli parafarmasevtik vasitələrin texnologiyası fənləri üzrə də magistrlərin imtahan bilikləri yoxlanılıb.

Fakültədən magistrlərin, həmçinin Klinik (tibbi) psixologiya ixtisası üzrə Diaqnostikanın əsasları: müayinə, konsultasiya, hesabatın tərtibi, Koqnitiv-davranış terapiyası, Psixoloji diaqnostika üsullarının tətbiqi: psixometrik qiymətləndirmə, Koqnitiv psixologiya, Psixi pozuntular, Psixopatologiya fənlərindən imtahan verdikləri bildirilib.

Menecment (səhiyyə sahəsi üzrə) ixtisası üzrə imtahanlar 9 fənni - Səhiyyədə insan resurslarının idarə olunması, Tibbi sığorta, Səhiyyədə qanunvericilik, Səhiyyənin təşkili, Səhiyyədə marketinq, Səhiyyədə risklərin idarə olunması, Təşkilatı davranış, Ekoloji sağlamlıq, Səhiyyə xidmətlərinin təşkili və idarə olunması fənlərini əhatə edib.

Mikrobiologiya ixtisasından imtahanlar isə 11 fənn üzrə aparılıb. Bu ixtisas qrupuna Mikrobioloji immunologiya, Ümumi mikrobiologiya, Biologiyanın müasir problemləri, Biologiyanın tarixi və metodologiyası, Mikroorqanizmlərin genetikası, molekulyar-bioloji üsullar, Tətbiqi mikrobiologiya, Sterilizasiya, dezinfeksiya, antiseptika, Psixologiya, Xarici dil, Ali məktəb pedaqogikası, Elm və təhsildə kompüter texnologiyası fənləri daxildir.

Qış sessiyasında magistrlər Biokimya ixtisasından 7 fənn - Biokimyanın kimyəvi və fiziki əsasları, Biokimyəvi proseslərin energetik əsasları, Matris biosintezi, İctimai fənlər, Xarici dillər, Psixologiya, Elm və təhsildə kompüter texnologiyası fənləri üzrə də imtahan sınağından keçiblər.

İxtisaslar üzrə əsas fənlərdən imtahanlar ənənəvi (bilet üzərindən) şifahi canlı formatda müvafiq kafedralarda təşkil olunub. Yalnız Əczaçılıq ixtisası üçün tədris olunan Əczaçılığın tarixi və metodologiyası fənni üzrə imtahan test mərkəzində reallaşıb.

# Tədris Cərrahiyyə Klinikasının direktoru zəlzələdən sonrakı müalicə haqda danışıb



Türkiyədə baş verən dəhşətli zəlzələ nəticəsində ölənlərin sayı durmadan artır. Vaxt ötdükcə, dağıntılar altından sağ qurtarılma ehtimalı da azalır. Bununla yanaşı, xilas edilənlər arasında sonradan vəfat edənlər də var. Səbəb kimi həddən artıq sıxılma və psixoloji amillər göstərilir.

Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasının direktoru Mücahit Avcil bu mövzu ilə bağlı ARB telekanalına danışıb. Direktor bildirib ki, zəlzələ sonrası insan itkisinə ən çox səbəb olan əzilmə (kraş) sindromudur. Əzilmə, uzun müddətli sıxılma və hərəkətsizlik nəticəsində hüceyrələrdə zədələnmə və əzələ nekrozu meydana gəlir: "Burda yaralının sağ qalıb-qalmaması bir çox faktordan asıldı. İlk növbədə əzilmə dərəcəsi və bu vəziyyətdə nə qədər qalması, daha sonra isə düzgün müalicə aparılması önəmlidir.

Serum, dializ müalicəsinə başlanılmalı və xəstənin qanında dəyişən kalsium və potassium kimi bəzi duzların tənzimlənməsi üçün tədbirlər görülməlidir. Çünki insan uçqun altında saatlarla sıxılmış vəziyyətdə qadıqda, əzilən hüceyrələrdən qana bəzi maddələr keçir ki, bu, yaralı qurtarıldıqdan sonra da təzyiqin düşməsinə və digər fəsadlara səbəb olur. Ona görə də imkan varsa, hətta yaralı uçqun altındaykən serum köçürülməsinə başlamaq, sonrakı 24-72 saat ərzində isə arasıkəsilməz müalicə aparmaq böyük əhəmiyyətə malikdir".



# ATU-da elmi kadrların hazırlanması prosesi

## Sevindirici rəqəmlər olsa da, aradan qaldırılmalı hallar da var

**Son illər Azərbaycan Tibb Universitetində aparılan islahatlar xeyli dəyişiklik və yeniliklərə səbəb olub. Tədris proqramlarının Boloniya sisteminə uyğunlaşdırılması, tələbə-müəllim münasibətlərində yeni yanaşmalar, xarici vətəndaşların ATU-ya müraciətinin çoxalması, elmi-tədqiqat işlərinə marağın artması, imtahan prosesinin ilbəil təkmilləşdirilməsi aparılan islahatların tərkib hissəsidir.**

Bəs yüksəkixtisaslı elmi kadrların hazırlanması, elmi-tədqiqat işlərinin aparılması, mövzuların götürülməsi və müdafiəsi mexanizmi, elmi dərəcələrin verilməsi proseduru necədir? Doktorant və dissertantlar mövzu götürən zaman hər hansı problemlə üzləşirmi? Bu və digər suallarımızı ATU-nun Doktorantura və dissertantura şöbəsinin müdiri, professor Rizvan Məmmədov cavablandırıb.

Professorun bildirdiyinə görə, doktorantura və dissertantura üzrə ildə bir dəfə qəbul, iki dəfə isə minimum imtahan keçirilir: "Nazirlər Kabinetinin "Doktoranturaların yaradılması və doktoranturaya qəbul Qaydaları"na uyğun olaraq, doktorantlar iyun ayında xarici dildən, sentyabrda isə fəlsəfə və ixtisas fənlərindən imtahan verirlər. Doktorant qəbul olduqdan sonra 3 ay ərzində onun elmi işi təsdiq edilir. Bunun üçün ilk növbədə ona elmi rəhbər təyin olunur və mövzu seçilir. Yeni annotasiya hazırlanır".

Şöbə müdiri elmi işlərin təsdiqinin 3 mərhələdə getdiyini bildirib. Birinci mərhələ kafedrada başlayır. Burada elmi işin annotasiyası müzakirə olunur, elmi adlar, görüləcək işlər, gələcək planlar müzakirəyə çıxarılır, tənqid və tövsiyələr diqqətə çatdırılır: "Bundan sonra ikinci mərhələ başlayır. Mövzu Problem Komissiyasında müzakirə olunur. Dissertant və ya doktorantın elmi işinin nə dərəcədə aktuallığı araşdırılır, gələcəkdə müdafiə etmək üçün şərtlərin və lazımi bazanın, laboratoriyalarımızda elmi işlərin və ya eksperimentin aparılmasına şəraitin olub-olmadığı müəyyən edilir. Lazım gələrsə, müəyyən təkliflər olunur. Üçüncü mərhələdə fəlsəfə doktoru elmi dərəcəsi fakültə Elmi Şurasında təsdiqlənir. Elmlər doktoru elmi dərəcəsi isə Böyük Elmi Şurada öz təsdiqini tapır. Bu proseslərdən sonra mövzu protokollarla birgə Azərbaycan Milli Elmlər Akademiyasının Əlaqələndirmə Şurasına göndərilir. Akademiyada mövzuya baxılır, burada hər hansı təklif ola da bilər, olmaya da. Əlaqələndirmə Şurası da təsdiqlədikdən sonra doktorant və dissertant öz elmi işinə başlayır".

Professor R.Məmmədov hazırda ATU-da 180 doktorant və dissertantın təhsil aldığını bildirib. Onlardan 125-nin tibb üzrə fəlsəfə doktorluğuna, 65-nin isə elmlər doktorluğuna namizəd olduğunu qeyd edib: "Əvvəllər xarici dil üzrə qəbul imtahanı universitetin nəzdində keçirilirdi. 2020-ci ildən etibarən isə dəyişiklik oldu. 3 ildir ki, xarici dil üzrə qəbul imtahanı Dövlət İmtahan Mərkəzində aparılır. Qaydalara görə, 53 sualdan 25-i cavablandırılarsa, imtahan verən şəxs müvəffəqiyyət qazanmış hesab olunur. İlk il 25 nəfər fəlsəfə doktorluğu üzrə imtahan versə də, cəmi 6-sı müvəffəqiyyət qazana bildi. Bu isə imtahanlarda 16 faiz göstərici deməkdir. Növbəti il müvəffəqiyyət qazananların sayında irəliləyiş oldu və 20-yə çatdı. Ötən il isə 70 nəfərdən 34-ü imtahandan keçid balı toplaya bildi ki, bunu da yaxşı göstərici hesab etmək olar. Tələbat 28 nəfər olduğu üçün 6 nəfər müsabiqəyə düşdü".

Şöbə müdiri elmi işlərin təsdiqinin yubanması ilə bağlı narazılığını bildirib və bunun səbəbini açıqlayıb: "Kafedralar öz namizədlərini vermədikləri üçün bir qədər bu məsələyə laqeyd yanaşırlar. Bu da təqdirolunası hal deyil. Təsəvvür edin, bu il 49 nəfərdən cəmi 18-i elmi işini təsdiqlədə bilib.

Son 3-4 il ərzində isə elə ixtisaslar var ki, kafedralara elmi iş üçün müraciət etməyiblər. Həmin ixtisaslar sırasında hematologiya, genetika, plastik cərrahiyyə, ürək-damar cərrahiyyəsi, oftalmologiya, revmatologiya, nefrologiyanın adlarını çəkə bilərəm. Rezidenturanı bitirənlər istəyirlər ki, təhsillərini doktorantura pilləsində davam etdirsinlər. Amma kafedralar yer ayırmadığı üçün müraciət olunmur. Bu barədə universitet rəhbərliyi məlumatlıdır. Kafedralar adıçəkilən ixtisaslarla bağlı sentyabrda təkliflər verməsələr, rəhbərlik lazımi tədbirlər görəcək".

**Qabil ZİMİSTANOĞLU**

# Xəstəliyin qarşısını almaq, onu müalicə etməkdən daha rahatdır

## Fevralın 4-ü Ümumdünya Xərçənglə Mübarizə Günü idi



**Müasir tibbin ən qlobal problemlərindən biri xərçəng xəstəliyi ilə mübarizədir. Təsadüfi deyil ki, 2005-ci ildən başlayaraq hər il fevralın 4-ü Beynəlxalq Xərçəng Əleyhinə İttifaq tərəfindən Ümumdünya Xərçənglə Mübarizə Günü kimi qeyd olunur. Bu mübarizənin həm dünya miqyasında, həm də ölkəmizdə necə aparılması ilə bağlı ətraflı məlumat almaq məqsədilə ATU-nun Onkoloji Klinikasının müalicə işləri üzrə direktor müavini, Süd vəzi cərrahiyyəsi şöbəsinin müdiri, dosent Nigar Mehdiyevaya müraciət etdik.**

Müsahibimiz bu problemin hələ də aktual olaraq qaldığını, həm xəstələnmə, həm də ölüm hallarının ildən-ilə artdığını söylədi. Bildirdi ki, Ümumdünya Səhiyyə Təşkilatının verdiyi məlumatlara əsasən, 2021-2022-ci illərdə hər il 20 milyona yaxın insan onkoloji xəstəliyə düçar olub, bu xəstəliklə əlaqədar 10 milyondan çox ölüm faktı qeydə alınıb: "Statistika hər il dünya əhalisinin hər 5 nəfərindən birinin bu xəstəlikdən əziyyət çəkdiyini göstərir. Hər 8 kişidən biri və hər 11 qadından biri bu və ya digər növ xərçənglə xəstələnir. Ölüm göstəricilərinə görə, bu xəstəlik 2-ci yerdədir. Ən geniş yayılmış növlərindən biri isə süd vəzi xərçəngidir. Onu da xatırladım ki, 2020-ci ilə qədər xəstələnmə göstəricisi üzrə birinci yerdə ağciyər xərçəngi idi. Artıq süd vəzi xərçəngi onu üstələyib. Amma xəstələnmə göstəriciləri ayrı-ayrı ölkələrdə, hətta eyni ölkənin daxilində də fərqlidir. Həmçinin regionların inkişaf səviyyəsindən və zərərli peşə faktorlarından asılı olaraq, xərçənglə xəstələnmə yaş qruplarına, xəstəliyin növlərinə və intensivliyinə görə də müxtəlifdir".

Əsas problemlərdən biri kimi pediatrik onkologiyaya diqqət çəkən N.Mehdiyeva qeyd etdi ki, ildə təqribən 400 min uşaq bu xəstəlikdən həyatını itirir. Xəstələnmə intensivliyinin müxtəlif olmasına baxmayaraq, ən yüksək ölüm göstəricilərinin təqribən 70-72 faizi aşağı və orta inkişaf etmiş ölkələrin payına düşür. Onun sözlərinə görə, bu göstərici süd vəzi, kolorektal, qaraciyər, ağız boşluğu, dəri və prostat, eləcə də uşaqlıq boynu və ginekoloji xərçəngə aiddir: "Bəzən inkişaf etmiş ölkələrdə xəstələnmə göstəriciləri daha yüksək olur. Amma həmin ölkələrdə onkoloji xəstəliklərdən ölüm göstəriciləri inkişaf etməmiş, az inkişaf etmiş ölkələrə nisbətən qat-qat aşağıdır. Bu da ona dəlalət edir ki, xərçəng xəstələrinin sağalmasında maarifləndirmənin, erkən diaqnostika və düzgün müalicə taktikasının çox böyük əhəmiyyəti var. Bizim birincili profilaktika dediyimiz xəstəliyin ilkin profilaktikası xərçəng əmələ gətirən amillərlə mübarizədir. Buna böyük dövlət proqramları yönəldilib. Bizdə də böyük kampaniyalar aparılır. Ən məşhur kampaniya tütün əleyhinə olan kampaniyadır. Dövlətin bu cür kampaniyaları diqqətdə saxlaması, qapalı məkanlarda siqaret çəkmək qadağası və siqaret çəkən şəxslər üçün məhdud sahələrin ayrılması da xərçənglə mübarizə vasitələridir. Effektiv mübarizə üsullarından biri də insan papilloma virusuna qarşı vaksinasiyanın təbliğidir ki, bəşəriyyətin bu istiqamətdə çox böyük müsbət təcrübəsi var. Keçən əsrin ortalarında 5 Avropa ölkəsində məcburi vaksinasiya, skrininq həyata keçiriləndən sonra uşaqlıq boynu xərçəngi ilə xəstələnmə göstəriciləri bir neçə dəfə azalıb. Bu onu göstərir ki, erkən diaqnostika, yəni xəstəliyin əmələ gəlməsinin qarşısını əvvəlcədən almaq çox vacib bir məsələdir. Məlumdur ki, insan papilloma virusu uşaqlıq boynu xərçəngini əmələ gətirən əsas faktordur. Bizim yeniyetmə qızlarımız cinsi həyata başlamazdan əvvəl əksər Avropa ölkələrində və Amerikada olduğu kimi, mütləq vaksinasiyadan keçməlidirlər ki, sonradan bu riski azaltmış olsunlar. Ümumiyyətlə, birincili profilaktika dedikdə, düzgün həyat tərzi və qidalanma, zərərli vərdişlərdən mümkün qədər uzaq durmaq istiqamətində aparılan təbliğatı nəzərdə tuturuq. Biz bilirik ki, insan həyatının ən böyük həzlərindən biri də yeməkdir. Amma düzgün qidalanmaq lazımdır. 30 faizdən çox xərçəng riski, xüsusən də mədə-bağırsaq, süd vəzi, qaraciyər xərçəngi məhz qidalanma amili ilə əlaqədardır. Əgər biz sağlam həyat tərzi, düzgün qidalanma istiqamətində böyük təbliğat işlərini yerinə yetirsək, kütləvi olaraq ictimaiyyətin şüuruna da təsir etmiş olarıq".



Mütəxəssisin sözlərinə görə, ikincili profilaktika və skrininq proqramları isə bilavasitə dövlət tərəfindən təşkil olunur və tibb müəssisələrində tibb mütəxəssisləri tərəfindən aparılır. Qarşıya qoyulan əsas məqsəd xərçəngin erkən, yəni tamamilə müalicə olunub sağalması mümkün olan dövrdə aşkar edilməsidir: "İstənilən simptomu aşkar etdikdə, özünümüalicə ilə məşğul olmamaq, dərhal mütəxəssisə müraciət etmək vacibdir. Kliniki təsnifata və proqnozlaşmaya baxsanız görəcəksiz ki, xərçəngin hər hansı növündə, hətta birinci mərhələdə 5 illik yaşama göstəriciləri 90 faizə qədərdir. Xəstəlik erkən aşkarlanarsa, biz 100 xəstədən yalnız 10-nu itirə bilərik. Bu göstəricilər və proqnozlar getdikcə pisləşir. Ona görə də insan Allahın ona bəxş etdiyi həyatın qiymətini bilməli, bu qiymətli nemətə qarşı daha diqqətli olmalı, özünü sevməli, bir az pis səslənsə də, özünə eqoist yanaşmalıdır. Belə olduqda onkoloqların da işi xeyli yüngülləşər".

Üçüncülü profilaktikanın ağrılı proses olduğunu söyləyən onkoloq qeyd etdi ki, xəstəliyin qarşısını almaq, xəstədən əlimizi üzəndən sonra onu müalicə etməkdən daha rahatdır. Bu mərhələ artıq xərçəng diaqnozu qoyulmuş və müalicə almış xəstələrdə xəstəliyin qayıdışının vaxtında aşkar edilməsi və müalicəsidir.

Həkim-xəstə münasibətlərinə də toxunan N.Mehdiyeva hər bir insanın öz vəziyyəti, xəstəliyi haqqında informasiya almaq haqqına malik olduğunu diqqətə çatdırdı: "Çünki xəstənin alacağı müalicəyə razılıq verib-verməmək haqqı var. Bu nöqteyi-nəzərdən məsuliyyəti xəstənin özü ilə paylaşmalıyıq. Bir sıra həyati təhlükəli, kəskin vəziyyətləri istisna etməklə, müayinə və müalicəyə insan özü qərar verməlidir. Ona görə də xəstə müalicə olunmayacağı təqdirdə, ortaya çıxan ağırlaşmalar və həyat keyfiyyəti haqqında geniş informasiya almalıdır".

Xəstələrin vaxtlı-vaxtında müayinələrə gəlməsini tövsiyə edən dosent N.Mehdiyeva onların öz müalicə həkimlərinə böyük inamla yanaşmasının vacibliyini vurğuladı. O, ATU-nun Onkoloji Klinikasında xəstəyə öz doğması, yaxını kimi baxan peşəkar həkimlərin xərçənglə mübarizə istiqamətində çox böyük işlər görməsindən də söhbət açdı: "Klinikamızda həm xoşxassəli, həm də bədxassəli şişlərin müalicəsi daxil olmaqla, minlərlə əməliyyat aparılır. Mütəxəssislərimizin apardığı əməliyyatlar ümidi olmayan xəstələrə belə yaşamaq imkanı yaradır. Həkimlərimiz çox böyük xeyriyyəçilik işləri ilə də məşğuldur. Tərkibinə onkoloqlar daxil olan briqadalarımız regionlara ezam olunur, soydaşlarımıza təmənnasız tibbi xidmət göstərirlər. Gedəcəyimiz regionların rəhbərləri ilə əvvəlcədən danışırıq ki, xəstə axınını təmin etsinlər. Çatışmayan avadanlıqları və geniş istifadə olunan dərman preparatlarını da özümüzlə aparırıq. Mümkün olan müayinə və müalicələri yerinə yetirir, daha ağır xəstələri isə klinikamıza gətiririk".

Xeyriyyə aksiyalarında şəhid və qazi ailələrinə xüsusi həssaslıqla yanaşıldığını, onlara növbədənkənar tibbi xidmət göstərildiyini deyən müsahibimiz, həmçinin bu istiqamətdə böyük sosial proqramların həyata keçirildiyini bildirdi. Xatırladtı ki, qadın kontingenti arasında ən çox rast gələnən xəstəlik süd vəzi xərçəngidir: "İldə bir neçə dəfə elan verərək qadınları süd vəzi xərçənginin skrininqi olan mammoqrafiya müayinəsinə, konsultasiyalara dəvət edirik. Təcrübəli həkim-onkoloqlarımız tərəfindən mastektomiya, süd vəzinin götürülməsi əməliyyatları uğurla icra olunur. Xəstələrin tam ölçülmüş yüksək keyfiyyətli protezlərlə təminatını isə adlarının anonim qalmasını istəyən xeyriyyəçilər öz öhdələrinə götürür. Bu cür aksiyalar daha çox dünyada süd vəzi xərçəngi ilə mübarizə ayı kimi qeyd olunan oktyabr ayında və dövlət bayramlarına uyğunlaşmış günlərdə həyata keçirilir".

Klinikada xərçənglə mübarizəyə istiqamətlənmiş təbliğat xarakterli xüsusi çap materiallarının hazırlanaraq əhali arasında yayıldığını diqqətə çatdıran N.Mehdiyeva, sonda icbari tibbi sığorta haqqında fikirlərini də bizimlə bölüşdü. O, onkologiyanın icbari tibbi sığortaya daxil edilməsi barədə dəfələrlə təkliflər irəli sürdüklərini vurğuladı. Qeyd etdi ki, onkoloji xəstələr ən həssas qruplardan biridir: "Son 10 ildə geniş istifadə edilən kimyəvi dərman preparatlarının sayı kifayət qədər çoxalıb və bahalaşıb. Əksər hallarda xəstələri individual olaraq həmin dərman preparatları ilə təmin etmək mümkün deyil. Bu baxımdan dövlətin köməyinə çox böyük ehtiyacımız var. Artıq bu istiqamətdə ciddi işlər görülür və yaxın gələcəkdə konkret addımlar atılacağına inanırıq".

**Arif MƏMMƏDLİ**

---

**ATU-nun Ortopedik stomatologiya kafedrasının müdiri, professor Nazim Pənahov və kafedranın assistenti Rüfət Hüseynlinin həmmüəllifliyi ilə işıq üzü görən "Ortopedik stomatologiya. İmplantüstü protezlər" dərsliyinin ingilis və rus dilinə tərcümələrinin təqdimatı olub. Qeyd edək ki, kitabın Azərbaycan dilindəki orijinal variantı 2021-ci ildə işıq üzü görüb.**




## "Ortopedik stomatologiya. İmplantüstü protezlər" kitabı rus və ingilis dillərinə tərcümə olunub

Tədbirdə çıxış edən professor Nazim Pənahov kitabın 3 dildə təqdim olunmasından məmnunluğunu bildirib: "Bu dərsliyimiz uyğun fənnin müasir və beynəlxalq tədrisdə qəbul edilmiş bölmələrini tam əhatə edən15 fəsildən ibarətdir. Xatırladım ki, kitabımızın Azərbaycan dilində nəşri Vətən müharibəsinin ildönümü günlərinə təsadüf etdiyindən, biz müəlliflər onu şəhidlik zirvəsinə ucalmış bütün tibb işçilərinin əziz xatirəsinə ithaf etmişik".

Sonra Şuşanın azad olunması haqda Müzəffər Ali Baş Komandan İlham Əliyevin tarixi çıxışı və ecazkar Azərbaycan musiqisinin müşayiətilə şəhid tibb işçilərinin fotolarından ibarət video-çarx nümayiş olunub.

Kitabın həmmüəllifi Rüfət Hüseynli dərsliyi hazırlayarkən apardıqları araşdırmalarla bağlı iştirakçılara məlumat verib.

Tədbirdə çıxış edənlərdən ATU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Orxan İsayev, Almaniyanın Medentis şirkətinin Şərqi Avropa ölkələri üzrə təmsilçisi dr. Sebastian Herdt, Ortopedik stomatologiya kafedrasının məsləhətçi-professoru Zöhrab Qarayev, universitetin Tədris Stomatoloji Klinikasının direktoru, t.ü.f.d. Mahir Səfərov, Azərbaycan İmplantoloqlar İctimai Birliyinin sədri, t.ü.f.d. Cabbar Həsənov, Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Stomatologiya və üz-çənə cərrahiyyəsi kafedrasının professoru Afət Ağazadə, ATU-nun Stomatologiya fakültəsinin dekanı, dosent Səid Əhmədov, RealDent şirkətinin icraçı direktoru Emin Kərimov kitabla bağlı fikirlərini bölüşüblər. Prorektor Orxan İsayev vurğulayıb ki, artıq beynəlxalq standartlara uyğun kitabımız olduğunu fəxrlə deyə bilərik.

Tədbir ATU-nun rezidentləri üçün təşkil edilən və dental implantologiyanın müasir problemlərinin həllinə həsr olunan mühazirələrlə davam edib.

# Əməkdaşlarımızın ixtirasına beynəlxalq patent verilib

**Azərbaycan Tibb Universitetinin Sitologiya, embriologiya və histologiya kafedrasının müdiri, professor Eldar Qasımov, Bakı Dövlət Universitetinin Fizika Problemləri İnstitutunun Bioloji sistemlər fizikası laboratoriyasının aparıcı fizik-mühəndisi Rəşid Əliyev və ATU-nun Elmi-Tədqiqat Mərkəzinin Elektron mikroskopiya şöbəsinin böyük elmi işçisi, b.ü.f.d. Fuad Rzayevin birgə ixtirası beynəlxalq patent alıb.**

**Belə ki, yanvarın 27-də Avrasiya Patent Təşkilatının qərarına əsasən, "Elektron mikroskopda obyektləri fiksasiya etmək üçün istifadə olunan vakuum aparatı" (№ 042254) patentləşdirilib.**

Qeyd etmək lazımdır ki, ixtiraçılar tərəfindən ilk dəfə təqdim olunan vakuum aparatında elektron mikroskopiyada ultrastrukturu öyrənilən nümunələrin fiksatorla birlikdə 1 sutka saxlanılmaqla, daha sonra ümumi qəbul edilmiş metodlar əsasında işlənildikdə, daha keyfiyyətli elektronoqrammaların alınmasına nail olunub. Bu zaman istər insan, istərsə də bitki obyektlərinin quruluşunun tədqiq olunması fərq etmir.




Fiksasiya prosesində istifadə olunan reaktivlərin tərkibində heç bir dəyişiklik olunmadan sol sütunda (Şəkil A və B) bitkilərin müxtəlif hissələrinin vakuumsuz, sağ sütunda (Şəkil C və Ç) isə temperatur rejimi ilə tənzimlənən vakuum aparatında fiksasiya olunduqdan sonra işıq (A və C) və elektron mikroskopunda (B və Ç) çəkilmiş şəkillərinin müqayisəsi verilib. İstər işıq, istərsə də ultrastruktur səviyyədə vakuumsuz şəraitdə fiksasiya olunmuş bitkilərin hüceyrəvi və qeyri-hüceyrəvi elementlərinin kəskin deformasiyası aydın görünür (A, B). Təsvir olunanların tam əksinə olaraq, vakuum aparatında fiksasiya olmuş preparatlarda hüceyrənin zarla əhatə olunmuş bütün strukturlarında nəzərə çarpacaq dəyişikliklər aşkar edilmir. Qeyd etmək lazımdır ki, zarlı və matriks elementlərinin mürəkkəbliyi ilə fərqlənən xloroplastların struktur elementləri yalnız vakuum aparatının iştirakı ilə fiksasiya olunmuş bitkilərdə aşkar olunub (Ç).

**Bu günlərdə Azərbaycan Tibb Universitetinin I Cərrahi xəstəliklər kafedrasının əməkdaşı Taryel Ömərov 12 ölkədən 72 nümayəndənin iştirak etdiyi "Bariatrik-metabolik cərrahiyyə üzrə son praktik yeniliklər"dən bəhs edən kursdan qayıdıb.**



## Beynəlxalq kursda əməkdaşımızın təcrübəsinə istinad olunub

Tanınmış mütəxəssis proqram çərçivəsində maraqlı sürprizlə qarşılaşıb. İki gün davam edən kursda "Ponderas" Akademik Hospitalının Endoskopik Cərrahiyyə Mərkəzinin, həmçinin Minimal İnvaziv Mədə-bağırsaq Cərrahiyyəsi və Mükəmməl Bariatrik Cərrahiyyə Mərkəzinin direktoru, professor Catallin Copaesc təkrar mədəkiçiltmə əməliyyatlarından bəhs edən geniş treninq proqramında onun məqaləsinə istinad edib.

Bu barədə məlumat verən T.Ömərov bildirib ki, kursun ilk günü "Müasir bariatrik-metabolik cərrahi tendensiyalar" mövzusuna həsr olunub: "Sonda sorğu keçirildi. Sorğuda bariatrik-metabolik cərrahi əməliyyat olunmuş şəxsin bir neçə ildən sonra çəkisi artarsa və ya əməliyyatı uğursuz alınarsa, ona hansı əməliyyatın tətbiq olunması məsələsi qoyulmuşdu. Biz də bilirik ki, ilk restriktiv əməliyyat uğursuz olarsa, pasiyentdə 2-ci əməliyyat şuntlayıcı, yəni nazik bağırsaqların qısaldılması olmalıdır. Buna da "mini-qastrik baypas" deyilir.

Zalda olan mütəxəssislər baypas əməliyyatını seçdilər. Mən isə təklif irəli sürdüm ki, bu zaman xəstədə təkrar mədəkiçiltmə əməliyyatını aparmaq lazımdır. İzah etdim ki, pasiyentin anatomiya və fiziologiyasını pozmamaq şərti ilə ona 2-ci dəfə arıqlama şansı verməliyik. Bunu zalda əyləşən mütəxəssislər arasında yeganə olaraq mən səsləndirdim".

Kursun 2-ci günü "Uğursuzluğa məruz qalmış bariatrik cərrahiyyə əməliyyatlarının fəsadları"na həsr edilib. Bu zaman professor Catallin Copaesc onun yazdığı məqalədən sitat gətirib: "Hansı ki, adıçəkilən məqalədə 34 pasiyent üzərində 3 il ərzində aparılan təkrar mədəkiçiltmə əməliyyatlarının nəticələri öz əksini tapmış və dünyanın nüfuzlu jurnallarının birində nəşr olunmuşdu. Bu mənim üçün bir sürpriz oldu. Professor bildirdi ki, məqalənin müəllifi hazırda bizdə dinləyicidir. Tədbir iştirakçılarının əksəriyyəti bu uğur münasibətilə öz təbriklərini ifadə etdi. Əlbəttə, bu çox qürurverici idi".

# Həkimlərimiz xəstənin öd yolundan 100-dən çox daş çıxarıblar

**Tədris Cərrahiyyə Klinikasında növbəti ağır və uğurlu əməliyyat aparılıb. Klinikanın həkimləri 60 yaşlı qadın xəstənin öd yollarından müxtəlif ölçülü 100-dən çox daş çıxarıblar.**



Klinikanın qastroenteroloqu Fərahim Məmmədzadənin verdiyi məlumata görə, xəstə mədəsinin üstündə kəskin dözülməz ağrı ilə müraciət edib. Bəlli olub ki, digər klinikada xanımdan heç bir analiz götürmədən ona parazitlərə qarşı ağır dərman təyin olunub. Bu preparat isə xəstənin mədəsində tutma xarakterli sancı yaradıb: "Lakin müayinə zamanı xəstənin mədəsində problem olmadığını aşkarladıq. Öd yollarının ağrısı mədənin üstünə epiqastral nahiyəyə yönəlib. Öd kisəsi sağ qabırğaya ağrı verir, öd yolunda daş olanda isə mədənin giriş hissəsinə, döş qəfəsinin bitəcək hissəsinə ağrı verir. Digər əlamətlərə görə öd yolunda daşlardan şübhələndiyimizdən, xəstəyə MRT təyin olundu. Və öd yollarında ölçüləri 5 mm-dən 3 sm-ə qədər 100-dən çox daş aşkarlandı".

F.Məmmədzadənin apardığı əməliyyat zamanı xəstədə ERCP əməliyyatı icra olunub, sfinkter kəsiyindən daşlar çıxarılıb. Ən böyük daşın çıxarılması mümkün olmadığına görə, onun yanına stend taxılıb. Müəyyən müddət ərzində həmin daş əridiləcək və sonradan onun çıxarılması rahat olacaq.

Həkim gözlərdə saralma, sidikdə tündləşmə müşahidə olunan zaman öd yollarının müayinəsini məsləhət görür.

# Bir seminarda üç mövzu təqdim olunub

**ATU-nun Tədris Cərrahiyyə Klinikasında rezidentlər üçün ənənəvi seminarlar davam edir. Fevralın 7-də üç aktual mövzuya dair növbəti seminar keçirilib.**



Təqdimatlardan öncə klinikanın rezidentlər üzrə məsul şəxsi, Uşaq cərrahlığı kafedrasının assistenti Namiq Xəlilov klinikada rezidentlərin nəzəri biliklərinin və praktik bacarıqlarının yüksəldilməsi üçün universitet rəhbərliyi tərəfindən əlverişli şərait yaradıldığını vurğulayıb. O, icrasına 2019-cu ildən start verilən bu layihə çərçivəsində indiyə qədər 100-dən çox mühazirənin dinlənildiyini bildirərək, rezidentləri məruzələr ətrafında müzakirələrdə fəal iştirak etməyə çağırıb.

II Mamalıq-ginekologiya kafedrasının müdiri, professor Hicran Bağırova da rezidentlərin aparıcı mütəxəssis kimi formalaşmasında bu cür tədbirlərin xüsusi əhəmiyyət daşıdığını diqqətə çatdırıb. Eyni zamanda bəzi rezidentlərin seminarlarda iştirak etməyə həvəs göstərmədiklərindən təəssüfləndiyini deyib. Onları bu prosesə cəlb etməyin vacibliyini söyləyən professor, hər 3 mövzuda mühazirənin rezidentlər üçün faydalı olacağına əminliyini bildirib və məruzəçilərə uğurlar arzulayıb.

Bundan sonra məruzələrin təqdimatına başlanılıb. İlk olaraq II Mamalıq-ginekologiya kafedrasının dosenti Şeyman Qədimova "Ginekoloji təcrübədə sidikqaçırma, onun diaqnostikası və cərrahi müalicəsi" mövzusunda məruzə ilə çıxış edib. "Nəzəri biliksiz praktika yoxdur. Təəssüf ki, rezidentlər birbaşa əməliyyatxanaya qaçmaq istəyirlər. Nəzəri biliklərini genişləndirmək istəmirlər" – deyən məruzəçi, qeyri-iradi sidikqaçırma ilə müşayiət olunan patologiyanın epidemiologiyası, əmələ gəlmə səbəbləri, növləri, müayinə və müalicə üsullarından danışıb. Mütəxəssis şəxsi təcrübəsini də seminar iştirakçıları ilə bölüşərək, 2018-2022-ci illər ərzində II Mamalıq-ginekologiya kafedrasında müşahidə olunmuş 172 qadının müalicə nəticələri barədə məlumat verib.

"Sidiklik-uşaqlıq yolu fistullarının cərrahi müalicəsi bu gün" mövzusunda məruzə ilə çıxış edən Urologiya kafedrasının professoru Əlimərdan Bağışov, bu ağır patologiyanın mamalıq praktikasında ağır doğuşlar, ginekoloji praktikada isə ginekoloji əməliyyatlar zamanı sidik orqanlarının zədələnməsi nəticəsində əmələ gəldiyini bildirib. Qeyd edib ki, uşaqlıq yolu fistullarının 43 faizi mamalıq, 52 faizi ginekoloji, 2 faizi onkoloji mənşəlidir. Həmçinin məişət travmaları və digər səbəblərdən də baş verir. Professor apardıqları 221 əməliyyat zamanı tətbiq etdikləri yenilikləri də rezidentlərlə bölüşüb.

Daha sonra Tədris Cərrahiyyə Klinikasının Laboratoriya şöbəsinin həkimi Leyla Həşimovanın "Sidik yolları infeksiyaları" mövzusunda məruzəsi dinlənilib.

İnteraktiv şəraitdə keçən seminarda məruzəçilər rezidentlərin hər 3 mövzuya dair çoxsaylı suallarını da cavablandırıblar.

**Yoluxucu xəstəliklər kafedrası son iki il ərzində istər elmi, istər tədris-metodiki, istərsə də nizam-intizam sahəsində ciddi nailiyyətlər əldə edib. Bundan əlavə, tələbələrin Tələbə Elmi Cəmiyyətinin işində fəal iştirakı və onların aktiv çıxışları təqdir olunub.**



# Rezidentlər müəllimlər qarşısında çıxış edib

Bütün bunlarla yanaşı, ilk dəfə olaraq yanvar ayında kafedranın müdiri, dosent Cəlal İsayevin rəhbərliyi, eləcə də kafedra müdirinin elmi işlər üzrə müavini, dosent Mirzamin Muxtarov və tədris hissə müdiri, dosent Vüqar Cavadzadənin birgə təşkilatçılığı ilə "İnfektologiyanın aktual problemləri" mövzusunda rezidentlərin elmi-praktik seminar məşğələləri keçirilib. Qeyd edək ki, hazırda Yoluxucu xəstəliklər kafedrasında 34 rezident təhsil alır.

Seminarda II, III və IV kursun rezidentlərindən Adil Əliyev, Leyla Bağırova, Gülxanım Ağazadə, Leyla Qədirova, Aidə Əlistanova, Mədinə Həsənova, Misri Qasımova, Mələk Səlimli, Nurlana Hüseynova, Səbinə Həsənzadə, Vəfa Şıxıyeva, Yetər Məmmədova, Günay Süleymanova, Zərifə Rəsulova, Aysel Şirinova, Şirin Mehdiyeva, Aidə Şəkərova, Aynur Qurbanova, Təyyurə Ağayeva, İsmayıl İsmayılzadə və Bahar Quluzadə tibbin bu sahəsi üzrə hazırda aktual olan bir sıra mövzularda maraqlı çıxışlar ediblər.

Mövzuların hazırlanması zamanı kuratorlar, kafedra müdiri Cəlal İsayev, professor Elçin Hüseynov, dosentlər Ələsgər Vəliyev, Mirzamin Muxtarov, Sədrəddin Atakişizadə, Vüqar Cavadzadə, Natiqə Xudaverdiyeva, Gülnarə İbrahimova, Sulduz Əhmədova, Reyhan Bəylərova, Könül Cəfərova, assistentlər Gülnarə Kərimova, Xeyransa Əhmədzadə və t.ü.f.d. Samir Məmmədov rezidentlərə öz təklif və tövsiyələrini veriblər. Rezidentlər tərəfindən təqdim edilən mövzular kuratorlar və digər müəllim-əməkdaşlar tərəfindən maraqla qarşılanıb.

Onu da qeyd edək ki, kafedrada I kurs üzrə təhsil alan 11 rezidentin iyun ayında müxtəlif mövzular üzrə çıxışları planlaşdırılır.

AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ
AZƏRBAYCAN TİBB UNİVERSİTETİ

## KAFEDRALAR ÜZRƏ AŞAĞIDAKI YERLƏRİ TUTMAQ ÜÇÜN MÜSABİQƏ ELAN EDİR:

**Kafedraların professorları:**
- Urologiya kafedrası - 1 yer (0,5 vahid)
- I Uşaq xəstəlikləri kafedrası - 1 yer (0,5 vahid)

**Kafedraların dosentləri:**
- Dermatovenerologiya kafedrası - 1 yer (0,5 vahid)
- Ortopedik stomatologiya kafedrası - 1 yer (0,5 vahid)
- III Cərrahi xəstəliklər kafedrası - 1 yer
- I Mamalıq və ginekologiya kafedrası - 2 yer (0,5 vahid)
- Uşaq cərrahlığı kafedrası - 1 yer (0,5 vahid)
- Ümumi cərrahlıq kafedrası - 1 yer

**Kafedraların assistentləri:**
- I Cərrahi xəstəliklər kafedrası - 1 yer
- I Cərrahi xəstəliklər kafedrası - 1 yer (0,5 vahid)
- I Daxili xəstəliklər kafedrası - 1 yer (0,5 vahid)
- Ağız və üz-çənə cərrahiyyəsi kafedrası - 1 yer
- Ortopedik stomatologiya kafedrası - 2 yer
- Oftalmologiya kafedrası - 1 yer (0,5 vahid)
- Uşaq stomatologiyası kafedrası - 1 yer
- Məhkəmə təbabəti kafedrası - 1 yer (0,5 vahid)
- Terapevtik stomatologiya kafedrası - 1 yer
- Terapevtik stomatologiya kafedrası - 1 yer (0,5 vahid)
- II Uşaq xəstəlikləri kafedrası - 2 yer (0,5 vahid)
- Sitologiya, embriologiya və histologiya kafedrası - 1 yer

**Kafedraların baş müəllimləri:**
- İctimai fənlər kafedrası - 1 yer
- Sitologiya, embriologiya və histologiya kafedrası - 1 yer
- Əczaçılıq texnologiyası və idarəçiliyi kafedrası - 1 yer (0,75 vahid)

**Elmi Tədqiqat İmmunologiya Laboratoriyası** *(laboratoriya müdiri)*

**Elmi Tədqiqat Mərkəzi:**
- Biokimya şöbəsi (böyük elmi işçi) - 1 yer

**Elmi Tədqiqat Mərkəzi:**
- Farmakologiya (kiçik elmi işçi) - 1 yer

**Müsabiqədə iştirak etmək üçün sənədlərin təqdim olunma müddəti elan qəzetdə dərc olunduğu gündən 30 gün keçənədək-dir. Sənədlər rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir:**

**AZ 1007, Bakı şəhəri, Ənvər Qasımzadə küçəsi,14**
**Telefon: 597-10-08**

### Müsabiqədə iştirak etmək istəyənlərin nəzərinə

**Kafedralar üzrə vakant yerləri tutmaq üçün müsabiqədə iştirak edənlər Elmi katibliyə aşağıdakı sənədləri təqdim etməlidirlər:**

1. Rektorun adına ərizə.
2. Kadrlar uçotunun şəxsi vərəqəsi (yeni formatda).
3. Kafedradan verilmiş xasiyyətnamə. Xasiyyətnaməni kafedranın müdiri və həmkarlar təşkilatının sədri imzalamalıdır. Xasiyyətnamənin müsbət və ya mənfi olması, o cümlədən bu şəxsin yeni müddətə kafedrada çalışıb və ya çalışmaması əsaslandırılmalıdır. Kafedra müdiri vəzifəsinə iddiaçılara xasiyyətnaməni fakültənin dekanı və həmkarlar təşkilatının sədri imzalamalıdır.
4. Tərcümeyi-hal. Burada şəkil, ad, soyad, bitirdiyi məktəblər, elmi ad və dərəcələr, bildiyi dillər, bildiyi kompüter proqramları, çap olunmuş işlərin sayı, işlədiyi yerlər, hazırkı vəzifədə neçə il çalışması, niyə bu vəzifəyə yenidən seçilmək istəməsi, olduğu ixtisasartırma kursları, ailə vəziyyəti barədə ətraflı məlumat, yaşadığı ünvan, elektron poçt ünvanı və telefonu göstərilməlidir.
5. ATU-nun klinikalarında çalışanlar üçün son beş ilin həkimlik fəaliyyəti barədə klinikadan verilmiş arayış. Arayış klinikanın direktoru və həmkarlar təşkilatının sədri tərəfindən imzalanmalıdır.
6. Son beş il ərzində çap olunan elmi işlərin siyahısı. Siyahı müəllif və kafedra müdiri tərəfindən imzalanmalıdır.
7. Açıq mühazirənin və ya açıq təcrübi dərsin videoçəkilişinin diski.
8. Şəxsiyyət vəsiqəsinin surəti.
9. Müvafiq elmi dərəcə diplomu və elmi ad attestatının surəti.

**Qeyd: ATU-nun əməkdaşı olmayan mütəxəssislər siyahıdakı 3-cü, 5-ci və 7-ci bənddəki sənədlərin əvəzinə, sonuncu iş yerindən verilən xasiyyətnamə, işlədiyi klinikadan həkimlik fəaliyyəti barədə arayış və əmək kitabçasından çıxarışı təqdim etməlidirlər.**

### Etibarsız sayılır

Manafova Aysel İsa qızı (qrup 121A11a) tələbə bileti itdiyi üçün etibarsız sayılır.

# "Heydər Əliyev İli"nə həsr olunmuş şahmat turniri keçirilib



**Fevralın 8-9-da ATU-nun idman kompleksində "Heydər Əliyev İli"nə həsr olunmuş şahmat turniri keçirilib. Azərbaycan Tibb Universitetin professor-müəllim heyəti arasında keçirilən yarışa kişilərdən və qadınlardan ibarət komandalar qatılıb. Digər institutlardan nümayəndələrin də iştirak etdiyi turnirin sonunda qaliblər müəyyənləşib.**

Qadınlar arasında mübarizədə Elm və Təhsil Nazirliyinin akademik Y.H.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunun əməkdaşı, texnika elmləri üzrə fəlsəfə doktoru, aparıcı elmi işçi Afina Əliyeva I, ATU-nun II Uşaq xəstəlikləri kafedrasının əməkdaşı İlhamə Hüseynova II, Əczaçılıq kimyası kafedrasının assistenti Könül Ağamirzəyeva III yeri tutublar. Kişilər arasında mübarizədə isə Hərbi cərrahiyyə kafedrasının müəllimi Asif Əhmədov I, universitetimizin tədris idman kompleksinin əməkdaşı Mahir Abdullayev II, Psixiatriya kafedrasının baş laborantı Ziyadxan Abdullayev III yerə layiq görülüblər.

Yarışlar bitdikdən sonra mükafatlandırma mərasimi olub. Əvvəlcə qardaş Türkiyədə təbii fəlakət nəticəsində həyatını itirən insanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Bundan sonra çıxış edən "Təbib" idman klubunun sədri Qələndər Aslanov professor-müəllim heyəti arasında müxtəlif idman növləri üzrə yarışların təşkilinə həmişə diqqət yetirildiyini, "Heydər Əliyev İli" elan olunan 2023-cü ildə bu cür yarışlara xüsusi önəm veriləcəyini bildirib.

Mükafatlandırma mərasimində ATU-nun İnzibati-təsərrüfat işləri üzrə prorektoru Tağı Əhmədov, Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin rəis müavini Aydın Yusifov, Nəsimi rayon Gənclər və idman idarəsinin rəisi Şahmar Tağıyev və "Təbib" idman klubunun şahmat üzrə məşqçi-müəllimi Kübra Bacarani də çıxış ediblər. Ulu öndərimiz Heydər Əliyevin idmana və idmançılara hər zaman xüsusi qayğı göstərdiyini xatırladan natiqlər, əməkdaşlarımızın bu yarışlarda həvəslə iştirak etməsini yüksək qiymətləndirərək qalibləri təbrik edib və onların hər birinə uğurlar arzulayıblar.

Sonda qaliblər medal və diplomlarla təltif ediliblər. Birinci yerin sahiblərinə xüsusi kubok da təqdim olunub.

# Gənclər Günü münasibətilə stolüstü tennis turniri

**ATU-nun Tədris İdman Kompleksində Nəsimi rayon Gənclər və İdman İdarəsinin və "Təbib" idman klubunun təşkilatçılığı ilə tələbələr arasında 2 fevral - Gənclər Gününə həsr olunmuş stolüstü tennis turniri keçirilib. Turnirdə 12 oğlan və 6 qız tələbə iştirak edib.**



Açılış mərasimində Dövlət Himni səsləndirildikdən sonra "Təbib" idman klubunun sədri Qələndər Aslanov tələbələri Gənclər Günü münasibəti ilə təbrik edib, turnirdə onlara uğurlar arzulayıb.

Nəsimi rayon Gənclər və İdman İdarəsinin rəisi Şahmar Tağıyev də tələbələri təbrik edərək, onlara dövlətimizin gənclər siyasəti haqqında məlumat verib.

Turnirin baş hakimi - məşqçi-müəllim Yaroslava Ağaməliyevanın rəhbərliyi ilə dairəvi sistemlə keçirilən yarışa start verilib. Qızlardan Paşazadə Hicran I, Ağamaliyeva Fatimə II, Seyidzadə Aysu III, oğlanlar arasında İsa Cəfərli I, Tayfun Karakash II və İsmayıl Alkış III yerə layiq görülüblər.

Qaliblər Nəsimi rayon Gənclər və İdman İdarəsinin diplom və medalları ilə mükafatlandırılıblar. Turnirin sonunda xatirə şəkilləri çəkdirilib.

### Allah rəhmət eləsin!

Qidalanma və tibbi ekologiya kafedrasının əməkdaşları kafedranın laborantı Ofelya Quliyevaya atası

**Yadulla Qüdrət oğlunun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Normal fiziologiya kafedrasının əməkdaşları kafedranın baş müəllimi Şahmar Məmmədova bacısı

**Əntiqə xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**Mənsur Abbas oğlu Ələkbərov 1963-cü ildə Göyçə mahalının Basarkeçər rayonunun Subatan kəndində dünyaya göz açıb. O, doğma kənddə səkkizillik məktəbi bitirdikdən sonra orta təhsilini qonşu Şəfəq kəndində başa vuraraq BDU-ya daxil olub. Mənsur M.F.Axundov adına Respublika Dövlət Kitabxanasının Elmi-metodik şöbəsində redaktor və baş redaktor vəzifələrində çalışıb.**

# Sözü urvatda saxlayan şair




1997-ci ildən taleyini Azərbaycan Tibb Universitetinin orqanı olan "Təbib" qəzetinə bağlayan M.Ələkbərov indiyədək bu qəzetdə fəaliyyətini davam etdirir.

Ədəbi ictimaiyyətdə Mənsur imzası ilə tanınan şairin "Aşıq dostuma" adlı şeiri ilk dəfə 1989-cu ildə unudulmaz xalq şairi Hüseyn Arifin təqdimatı ilə "Ozan" qəzetində dərc olunub. Həmin vaxtdan ölkənin aparıcı mətbuat orqanlarında öz ədəbi, bədii-publisist məqalələri, şeirləri və eləcə də informasiya xarakterli materialları ilə çıxış edir.

"Bu dünya mən görəndimi" adlı ilk şeirlər kitabı 2004-cü ildə çap edilib. Bundan başqa, 2005-ci ildə tanınmış şair-yazıçı, publisist Eldar İsmayılın həyat və yaradıcılığına həsr olunan iri həcmli elmi-monoqrafik biblioqrafiyası işıq üzü görüb. Mənsur bütün bunlarla yanaşı, həm də onlarla şair və yazıçının kitabına redaktorluq edib və ön söz yazıb.

O, uzun illərdi ki, Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür və dövri mətbuatda səmərəli fəaliyyətinə görə "Həsən bəy Zərdabi" diplomuna layiq görülüb.

Şair dostum, dəyərli qələm ustası, publisist Mənsur ömrünün 60 yaşını "Tanrınındı bu yer üzü" kitabının işıq üzü görməsi ilə birgə qeyd etdi. Bu münasibətlə mən də kiçik bir dost təbriki yazmaq qərarına gəldim.

Onunla 1997-ci ildə "Ədəbiyyat" qəzetinin redaksiyasında keçirilən "Gənclər günü"ndə tanış olmuşdum və bu tanışlıq uzun illərin dostluğuna çevrildi. Bir müddət sonra məni özünün məsul katib işlədiyi "Təbib" qəzetində müxbir vəzifəsinə dəvət etdi. O vaxtdan indiyədək bir yerdə çalışırıq. Hər ikimiz böyük ustadımız Eldar İsmayılın yanında, sözün əsl mənasında, bir ədəbi məktəb keçdik.

Şeirin sönməyən ocağına tapınaraq daim bədii sözün keşiyində dayanan, urvatda saxladığı poeziyası ilə oxucularının növbəti görüşünə gələn şairin yeni kitabına seçdiyi ad da düşündürücüdür. "Tanrınındı bu yer üzü" kitabında şairin ilahi bir qüvvəyə güclü inamı öz əksini tapıb. Şair ona da inanıb ki, yerin, göyün sahibi olan Uca Tanrı yaratdıqlarından öz lütfünü heç vaxt əsirgəməyib və Tanrının bu payından şairin də qismətinə düşüb:

*Günüm keçdi gah istidə, şaxtada,*
*Heç baxmadım uçub gedən vaxta da.*
*Qismətimə düz də düşüb, saxta da,*
*Tanrı verən paydı deyə götürdüm.*

**Və yaxud:**

*Dünya dediyimiz cənnət bağıdı,*
*Bir yanı toy-büsat, biri ağıdı.*
*Mənalı ömrümün müdrik çağıdı,*
*Qorxmuram bu yaşın əzəmətindən.*

Məlumat üçün bildirim ki, müəllifin oxucularla sayca üçüncü görüşü olan bu kitabda saflıq, sadəlik kimi əsil insani keyfiyyətləri, Vətən, yurd həsrətli və təmiz sevgi duyğularını tərənnüm edən, eləcə də cəmiyyətimizdə rast gəlinən müxtəlif neqativ hallara güzgü tutan şeirlər yer alıb. Kitaba şairin "Uşaqlıqla üz-üzə" və "Bənövşə əfsanəsi" poemaları da daxil edilib.

Mənsur Ələkbərovu 60 illik yubileyi və yeni kitabının işıq üzü görməsi münasibətilə təbrik edir, uğurlar arzulayırıq!

**Arif MƏMMƏDLİ,**
*şair, publisist*

Baş redaktor
MƏĞRUR ƏLİYEV

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər. Əlyazmalar geri qaytarılmır

Qəzet "Təbib" qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, ATU-nun Nəşriyyat-Poliqrafiya şöbəsində çap olunur və universitet daxilində yayılır

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sifariş - 0003
Sayı 800